**PAŞA YAQUB**

# ÖVLİYALAR MƏSKƏNİ
# QUBA MAHALI

*II nəşr*

**Bakı-2012**
*(Qurban bayramı)*

**Redaktor:**

**Hacı Naib Səttarzadə**
*Qafqaz Müsəlmanları İdarəsinin şimal bölgəsi üzrə səlahiyyətli nümayəndəsi, Quba rayonunun axundu, İlahiyyat Alimi*

**Məsləhətçi:**

**Hacı Elnur Əfəndiyev**
*Quba şəhər məscidinin əfəndisi*

Paşa YaQub «**Övliyalar məskəni Quba mahalı**»,
Bakı, «Zərdabi LTD» MMC, 2012,136 səh.

*Əlinizdəki «Övliyalar məskəni Quba mahalı» kitabı müəllifin sayca iyrimi altıncı kitabıdır. Burada Azərbaycanın Quba böldəsində yaşamış bir çox tanınmış övliyaların mənalı həyat yolu araşdırılır və onların kəramətlərindən bəhs olunur. Birinci nəşrdən fərqli olaraq kitabın ikinci nəşrinə bir neçə fəsil əlavə olunmuşdur.*

*Kitabda həmçinin Quranın surə və ayələrinin düzülüşünün kimya, fizika, riyaziyyat, anatomiya, astronomiya, biologiya, kibernetika və informatika, ballistika elmləri ilə uyğunluğundan bəhs olunur.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

$Y\ \frac{05005000000}{0103-2012}$ Qrifli nəşr

© Paşa Yaqub, 2012

# XIZIR ZİNDƏ BABA

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Xızır Zində piri kimi tanınan müqəddəs ziyarətgah Bakı-Quba şosse yolunun solunda, *Siyəzən* rayonu ərazisində, *Beşbarmaq* dağında yerləşir. Bu yer xalq arasında Xızır Peyğəmbərin məqamı kimi qəbul olunur. Belə ki, Xızır əlehissəlamı yad etmək istəyənlər və dualarında onu vəsilə tutmaq istəyənlər bura üz tuturlar. Beşbarmaq dağında bu günə qədər qalan qədim tikililərin qalıqları, həmçinin mağaralar onu deməyə əsas verir ki, bu inanc əsrlərin sınağından çıxaraq, bu günümüzə gəlib çatmışdır. Yəni, bizim əcdadlarımız da bu məkanı müqəddəs tutmuş, sevə-sevə ziyarət etmiş və ibadət məqsədi ilə burada məscid inşa etmişlər. *Zində* sözü ərəbcə *diri* mənasını bildirdiyindən, *Xızır Zində* sözü də - *Diri Xızır* kimi tərcümə olunur.

*(Burada haşiyə çıxaraq qeyd edim ki, **Quba** sözü **qübbə** sözünün dəyişilmiş formasıdır ki, "günbəz", "göy qübbəsi" mənasını verir. Orta əsrlər şahlarının fərmanlarında da bu şəhərin adının **Qübbə** kimi yazıldığı tarixi mənbələrdən məlumdur.)*

Qurandan və Peyğəmbərin hədislərindən bizə məlumdur ki, yüksəkliklərdən edilən dualar Allah dərga-

hında tez qəbul edilir. Musa Peyğəmbərin Tur dağına, Məhəmməd əleyhissəlamın Hira dağındakı mağaraya çəkilməsi də məhz bununla əlaqədar idi. Bu mənada



Xızır Peyğəmbərin də Beşbarmaq dağını və buradakı mağaranı özünə ibadət yeri seçməsində bir qanunauyğunluq vardır. Təsadüfü deyildir ki, Xızır Peyğəmbər haqqında Quranın məhz **"Mağara"** surəsində xəbər verilir. Burada deyilir ki, Musa Peyğəmbər batini elmi öyrənmək üçün Allahdan bu elmə malik olan Xızır Peyğəmbəri ona yetirməsini diləyir. Rəbbim onun duasını qəbul edərək, Xızır əleyhissəlamın yerini nişan verir. İki peyğəmbərin görüşü və onların arasında olan dialoq çox maraqlıdır. Belə ki, Həzrət Musa batini elmi öyrənmək üçün Xızır Peyğəmbərə şagird olmaq istəyini bildirir. Xızır əleyhissəlam etiraz edərək bildirir ki, sən ancaq zahiri elmi bildiyindən, mənimlə yoldaşlıq etməyə səbrin çatmaz, mənim gördüyüm işlərə dözə bilməzsən. Musa Peyğəmbər təkid edərək, onun heç bir əmrindən çıxmayacağına, heç bir işinə mane olmayacağına söz versə də, sonadək dözə bilmir və onlar yarı yolda ayrılmalı olurlar. Bu ibrətamiz əhvalat Quranın

"Mağara" surəsinin 60-82-ci ayələrində belə təsvir olunur:

*"Yadına sal ki, bir zaman Musa öz gənc dostuna (xidmətində olan Yuşə ibn Nuna) belə demişdi: "Mən (Xızırla görüşmək üçün) iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca geri dönməyəcəyəm!"*

*"Onlar iki dənizin qovuşduğu yerə gəlib çatdıqda (yeməyə götürdükləri) balığı unutmuşdular, balıq isə (dirilib suya atılmış) dənizdə bir yarğana tərəf üzmüşdü".*

*"Onlar (iki dənizin qovuşduğu yerdən) keçib getdikləri zaman (Musa) öz gənc dostuna dedi: "Nahar yeməyimizi gətir. Bu səfərimiz bizi lap əldən saldı!"*

*"O isə: "Görürsənmi, biz qayanın yanında oturduğumuz zaman mən balığı unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız Şeytan unutdurdu. (Balıq dirilib) əcaib bir şəkildə dənizə yollanmışdır! – deyə, cavab verdi".*

*"(Musa:) "Elə axtardığımız yer buradır!" – dedi və onlar öz ləpirlərinin izinə düşüb gəldikləri yolla geri qayıtdılar".*

*"(Musa və Yuşə orada) Öz dərgahımızdan mərhəmət (peyğəmbərlik və vəhy, yaxud ilham və kəramət) əta etdiyimiz və Öz tərəfimizdən elm (qeybə dair bəzi biliklər) öyrətdiyimiz bəndələrimizdən birini (Xızırı) tapdılar".*

*“Musa ondan soruşdu: “Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?”*

*“(Xızır) belə cavab verdi: “Sən mənimlə bir yerdə olsan (görəcəyim işlərə) əsla dözə bilməzsən. (Sənin onlara səbrin çatmaz, çünki mən batini elmlə iş görürəm. Sənin bildiyin isə ancaq zahiri elmdir. Sən peyğəmbər olduğun üçün mən zahirən qadağan olunmuş bir iş gördükdə ona etiraz edib əleyhimə çıxacaqsan)”.*

*“Axı sən bilmədiyin (batininə, mahiyyətinə bələd olmadığın) bir şeyə necə dözə bilərsən?”*

*“(Musa) dedi: “İnşallah, səbirli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam!”*

*“(Xızır:) “Əgər mənə tabe olacaqsansa, səbəbini sənə izah etməyincə məndən heç bir şey haqqında soruşma!” – dedi”.*

*“Bundan sonra onlar durub yola düşdülər. Gəmiyə mindikləri zaman (Xızır) onu deşdi (gəminin bir-iki taxtasını sındırıb çıxartdı). (Musa) dedi: “Sən gəmidə olanları suya qərq etmək üçünmü gəmini deşdin? Doğrusu, (günahı) böyük bir şey etdin (olduqca çirkin bir iş gördün)”.*

*“(Xızır) belə cavab verdi: “Sənə demədimmi ki, mənimlə bir yerdə olanda (görəcəyim işlərə) əsla dözə bilməzsən?”*

*“(Musa) dedi: “Unutduğum bir şeyə görə məni danlama və məni öz işimdə (sənə tabe olmaqda) çətinliyə salma!”*

*“Yenə getdilər, nəhayət, bir oğlan uşağı ilə rastlaşdıqda (Xızır) dərhal onu öldürdü. (Musa) dedi: “(Heç bir günah iş tutmayan, buna görə də qisasa layiq olmayan) pak (məsum) bir canamı qıydın? Doğrudan da, çox pis bir şey etdin (çox pis bir iş gördün)”.*

*“(Xızır) yenə belə cavab verdi: “Sənə demədimmi ki, mənimlə birlikdə olanda (edəcəyim əməllərə) əsla dözə bilməzsən?”*

*“(Musa) dedi: “Əgər bundan sonra səndən bir şey barəsində xəbər alsam, bir daha mənimlə yoldaşlıq etmə. (Hərəkətlərinə etiraz etdiyim, səni qınadığım üçün) sən artıq mənim tərəfimdən üzrlüsən (məni atıb getməyə haqqın vardır)”.*

*“Sonra yenə yola düzəlib getdilər. Axırda bir məmləkət əhlinə yetişib onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq etmək (Musaya və Xızıra yemək vermək) istəmədi. Onlar orada yıxılmaq (uçulmaq) üzrə olan bir divar gördülər. (Xızır) onu düzəltdi. (Musa) dedi: “Əgər istəsəydin, sözsüz ki, bunun müqabilində bir muzd (çörək pulu) alardın. . .”*

*“(Xızır) dedi: “Bu artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır. (Zahirən naməqbul olduğunu gördüyün üçün) dözə bilmədiyin şeylərin yozumunu (batinini, iç üzünü) sənə xəbər verəcəyəm!”*

*“Belə ki, gəmi dənizdə çalışıb-vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki həmin adamların arasında (yaxud qabağında) hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi”.*

*“Oğlana gəldikdə, onun ata-anası mömin kimsələr idi. (Mən onun alnına baxıb gördüm ki, həddi-buluğa yetişəndə kafir olacaq) buna görə də biz (onun böyüyəndə) ata-anasını da (öz arxasınca) azğınlığa və küfrə sürükləməsindən qorxduq”.*

*“Və Rəbbinin onun əvəzində onlara daha təmiz və (ata-anasına qarşı) daha mərhəmətli olan başqa bir övlad verməsini istədik”.*

*“Divara gəldikdə isə, o, şəhərdə olan iki yetim oğlanın idi. Altında onlara çatası bir xəzinə vardı. Onların atası əməlisaleh (bir adam) idi. Rəbbin onların həddi-buluğa çatmalarını və Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi. (Ya Musa!) Mən bunları öz-özümdən etmədim (yalnız Allahın əmrini yerinə yetirdim). Sənin səbr edib dözə bilmədiyin şeylərin yozumu (batini mənası) budur!”*

# *İyirmi yanvar gecəsi Zində Babanı pərişan gördüm*

Pirdə olarkən söhbət etdiyim Peyğəmbər aşiqlərinin danışdıqlarından da buranın həqiqətən Peyğəmbər məqamı olduğuna şübhə yeri qalmırdı. Belə ki, bu ziyarətgahdan mənəvi ilham alan Quba rayonunun Əlibəyqışlaq kənd sakini Abdurahmanova Növrəstə Rəcəbalı qızının bu mövzuda danışdıqları oxucular üçün də maraqlı olacaq:

- Uşaqlığımdan bu pirə böyük inamım var və imkan daxilində tez-tez ziyarət etməyə çalışıram. Hərdən yuxuma da girir. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə yuxuda gördüm ki, Xızır Zində Baba Beşbarmaq dağının başında oturub, əli üzündə yollara baxır. Çox qəmgin, pərişan oturmuşdu. Sanki çiyinlərində ağır yük vardı. Fikirləşdim ki, görəsən nə baş verib ki, Baba belə qəmlidir. Səhər açılanda eşitdim ki, rus qoşunları Bakıda qırğın törədiblər.



*Xızır Zində pirindəki qədim tikilinin qalıqları*

Gənc yaşlarımda bir gecə ailəlikcə evdə yatmışdıq – deyə, müsahibim söhbətini davam etdirir: - Otaqda məndən başqa anam və kiçik bacı-qardaşlarım vardı. Gecə yuxudan ayılıb, anamın üstünün

açıldığını gördüm. İstədim durub yorğanı anamın üstünə çəkəm, amma hava soyuq olduğundan və yuxu şirin olduğundan fikrimdən vaz keçdim. Birdən öz-özümə fikirləşdim ki, körpə olanda anam mənim üstümü nə qədər örtübdür, gecələri başımın üstündə dayanıbdır, indi mən bir dəfə qalxıb onun üstünü örtə bilmirəm. İçimdə özümü qınamağa başladım. Bu anda qapı pəncərələr tayba-tay açıldı, içəri külək daxil oldu və küləklə birgə otağa gülab ətri yayıldı. Elə bu vaxt qapının ağzında bir kişi göründü. Kişi əlindəki əsanı yerə vurub, "Dur ananın üstünü ört" deyə əmr etdi. Mən qaranlıqda kişinin üzünü aydın görə bilməsəm də, səsini və hənirtisini açıq eşidirdim. Yatağımdan qalxıb, yorğanı anamın üstünə çəkdim və qayıdıb yerimə girdim. Bu vaxt həmin kişi sağ biləyimdən yapışıb, "Mən Xızır Zindəyəm" – dedi və yox oldu. Bir anlığa fikirləşdim ki, görəsən bu yuxudur, yoxsa reallıq? Ətrafa baxdım ki, qapı-pəncərə hələ də açıqdır, anamın üstü isə örtülüdür (hansı ki, anamın üstü əvvəlcə açıq idi, sonra mən örmüşdüm). Durub qapı-pəncərəni də örtərək, təkrar yatağıma uzandım.

Mənim həyatım çox çətinliklərlə keçib, - deyə, Növrəstə xanım söhbətini davam etdirir: - vəziyyətdən çıxmaq üçün həmişə Allaha və Xızır Zində Babaya dua etmişəm. Bir gecə yuxuda iki qoç gördüm – biri ağ, biri qara. Ağ qoçun boynunda qara yaylıq, qara qoçunsa boynunda ağ yaylıq vardı. Bir səs mənə dedi

ki, bu qurbanlar Xızır Zində Babanındır. Bu yuxunu bir neçə il dalbadal təkrar-təkrar görsəm də, əhəmiyyət vermirdim. Bu ilin yanvar ayında yenidən yuxuda həmin qoçları gördüm. Bu dəfə həmin səs mənə konkret olaraq dedi: ”Bilirsən, bu qurbanları hara aparmalısan? Bu qurbanları Xızır Peyğəmbərin ocağına aparmalısan; diri Peyğəmbərin ocağına” Artıq mən bu yuxuya ciddi yanaşmağa başladım və pul toplayıb iki qoç aldım – biri ağ, biri qara. Ağ qoçun boynuna qara yaylıq, qara qoçun da boynuna ağ yaylıq bağlayıb, keçən ay (avqustda) gətirib burada – Beşbarmaq dağında kəsdim. Qurbanları kəsib gedəndən sonra özümdə xeyli yüngülləşmə hiss elədim. Sıxıntılarım yavaş-yavaş azalmağa başladı. İçimdə özümü qınadım ki, gərək mən bu qurbanları neçə il bundan qabaq kəsəydim.

Yeri gəlmişkən qeyd edim ki, Növrəstə xanımın ulu babası Şeyx Abdulla və onun nəvəsi Abdulvahab Əfəndi də kəramətləriylə məşhur olan övliyalar olublar. Onların qəbrləri Ağbil kəndinin qəbirstanlığındadır və möminlərin sevimli ziyarətgahıdır.

### *Biz səni bir oğulla müjdələyirik*

*Məmmədova Xuraman Əjdər qızı - Oğuz rayonunun Kərimli kənd sakini:*

- Təzə gəlin olan vaxtlarımda yuxuda gördüm ki, dağın başında, böyük bir qəbirin yanındayam, yalvarıram ki, «Ay Zində Baba, səndən bir oğul istəyirəm».

Bir neçə gün dalbadal bu yuxunu gördüm. Aradan bir müddət keçəndən sonra, oğlum dünyaya gəldi. Zində Babanın kim olduğunu, harada dəfn olunduğunu öyrənmək istəsəm də, buna nail ola bilmirdim. Günlərin birində həyətə dilənçi girdi, qaynanam ona nəzir verərkən, evə dəvət etdi ki, bir stəkan çay içsin. Dilənçi dedi: «Tələsirəm, Zində Babanı ziyarətə gedirəm». Dedim: «Kimi ziyarətə gedirsən?» Dedi: «Zində Babanı». Dedim: «Neçə ildir mən onu axtarıram, yerini tapa bilmirəm». Dedi: «Quba yolunun üstündə, dağın başındadır». Mən ona nəzir verdim ki, mənim adımdan ziyarətgaha qoysun. Nəhayət, aradan bir neçə il keçdi, uşaq beş yaşa çatanda, sudurğa keçirdi, ölüm ayağında oldu. Əl açdım göyə, dedim: «Ya Rəbbim, bu uşaq ayılsın, birinci sinfə gedən gün kəndimizdə olan Çərşənbə ocağında qurban kəsərəm». Həmin andaca uşaq ayıldı. Böyüyüb, birinci sinfə gedəsi oldu. Həyat yoldaşım və digər kişi qohumlarımız qurban kəsməyə icazə vermədilər. Dedilər ərəb müəlliflərinin kitablarında pirdə qurban kəsməyi qadağan edirlər.

Uşaq üç gün dərsə gedəndən sonra, sağ biləyinin aşağısından çiban çıxdı, dörd ay əlinə qələm ala bilmədi, yoldaşlarından geri qaldı. Aradan bir il də keçdi, yenə də qurbanı kəsməyə icazə vermirlər. Ürəyimə dammışdı ki, bu il də uşağa nə isə olacaq. Sentyabrın birində uşaq məktəbli formasını geyib, 2-ci sinifə yola düşürdü ki, pilləkəndən düşəndə ayağı ilişib, yerə yıxıldı. Yerdə şüşə qırığı varmış, uşağın çənəsinin altından batdı, məktəbli forması al qana

boyandı. Həkim çağırdıq, şüşəni çıxarıb, yarasını sarıdı. Yenə də qurbanı kəsməyə icazə vermədilər. Nəhayət, bir il də ötdü. Üçüncü sinfə getməyinə bir neçə gün qalmış ürəyim əsirdi ki, görəsən bu il nə olacaq? Allaha yalvarırdım ki, heç nə olmasın. Nə isə... Məktəb başlamasına üç gün qalmış, uşaq meyvə ağacından yıxılıb sağ qolu qırıldı. Bu hadisədən sonra, hamı başa düşdü ki, bütün bunlar qurbanı gecikdirdiyimizə görə baş verir. Mən təkid edərək, bir qoç aldırdım, aparıb Çərşənbə ocağında kəsəndən sonra uşaqda heç bir problem olmadı.

## ŞEYX İBRAHİM ƏFƏNDİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Xalq arasında **Əfəndi Baba** adı ilə məşhur olan Şeyx İbrahim Əfəndi övliyaların görkəmlilərindəndir. O, XIX əsrdə *Şabran* rayonunun *Qalagah* kəndində yaşamışdır. Atasının adı İsmayıl, babasının adı Musa Axund olub. Ata babası Çələbi Axundun XVIII əsrdə Şam şəhərindən gəldiyi bildirilir. Ümumiyyətlə, onların soy kökü ata tərəfdən haşimilər nəslindən Həmzə Şühədaya, ana tərəfdən isə, Həzrət Aişə vasitəsi ilə Həzrət Ömərə bağlanır.

İbrahim Əfəndi ilk təhsilini Qalagahda öz ata-babalarından almışdır. Elmə böyük həvəsi olduğundan Kürdəmirli Mövlanə Şeyx İsmayıl Əfəndiyə (1782-

1848) intisab etmiş, iyirmi bir il ona mürid olaraq, irşad üçün icazənamə almışdır. (Onunla birlikdə Xas Məhəmməd, Molla Məhəmməd Yaraqlı (1777-1838), Seyid Cəmaləddin əl-Qumuği, İmam Qazi Məhəmməd (Şeyx Şamilin mürşidi) və digər tanınmış şəxsiyyətlər də Mövlanəyə mürid olmuş, elmin sirlərini öyrənərək, irşad üçün ondan icazənamə almışlar.) Nənqşibəndi Şeyxi Mövlanə Hacı İsmayıl Əfəndiyə intisab etməsini İbrahim Əfəndi belə xatırlayır:

*"Gəl əvvəl başdan söyləyim ki, bu övliyalıq elmi (Nəqşibəndilik – müəllif) tamam yer üzərindən götürülmüşdü. Ancaq alimlik (fiqh elmi) var idi bizim dövrümüzdə. Biz fəqirlər bu elmlə məşğul idik. Eşidirdik ki, Şirvana övliyalar gəlib-gedirlər. Sonra haqlıq ilə Mövlanə Hacı İsmayıl Şirvani (Allah ondan razı olsun) Kürdəmirə gəldi, sakin oldu və bir para müxlis (xalis) adamlara özü xəbər göndərdi ki, "buraya gəlin". Bir də Diyallı Məhəmmədə. Ona da elan etdi ki, "bir buraya, mənim yanıma gəl!" O, cavabında dedi: "Səndən irəli çox adamlara getdik, bir şey hasil olmadı". Mövlanə qurbanolduğum cavabında dedi ki, bu da onların birisi olsun. Xəlilli Molla Məhəmməd öz dilindən söylədi ki, "Mən görə-görə Diyallı Məhəmməd Əfəndi mərhum Hacı İsmayılın yanına getdi-gəldi. Mən ondan xəbər aldım ki, nə gördün? Buyurdu ki, "Mən gedən vaxtda Mövlanəni (İsmayıl Şirvanini) məscid qabağında əyləşmiş və yemişan ağacına söykənmiş gördüm. Mənə dedi: "Dəstamazın yoxdursa dəstamaz al". Cavabında dedim ki, dəstəmazım var.*

*Buyurdu: "Üzü qibləyə mənim yanımda əyləş və gözünü yum". Mən də o təhər ki, buyurmuşdu, əyləşdim. "Boş dur"-dedi. Yəni qəm və qüssə qəlbinə gətirmə. Mən də boş durdum, nagah ustadım Şeyx Məhəmməd Cekli kömürdən qara qabağımda durdu. Mən ağladım. Çünki ustadımdır deyə. Sonra dedi: "Ağlama, onda heç nə yoxdur". Bu vaxt qəlbimdə fikirləşdim ki, əgər Məkkə və Mədinəni mənə müayinə (aşkar) göstərsə, gerçək övliyadır, yoxsa yox. Elə fikirləşən kimi tələbim hasil oldu (yəni bu şəhərlər göründü). Sonra buyurdu: "Get, daha gəlmə".*

*Mövlanənin ki, haqlığı bilindi, xalq Hacı Məhəmməd Səid Əfəndini vəkil edib, onun qulluğuna göndərdilər. O, Mövlanəyə dedi: "Adamlar sənə salam göndərdilər, dedilər ki, eşitmişik bəy həqq təriqət gətiribdir. Necə olsun gərək?" O da dedi ki, "Bu haqq təriqət hər adamın işi deyildir. Neçün ki, uzun işdir". Məhəmməd Səid Əfəndi dedi: "Bəs biz zəlalətdə qalaq? Bizə bir çarə". Buyurdu: "Doğrudur, zəlalətdə qalmaq olmaz".*

*Biz fəqirlər uzaqdan baxırıq ki, yanına gəlib, gedənlər qəbir əhlindən kəşflə xəbər verirlər. Onlardan xəbər aldıq: "Sizdə bu hal necə zahir oldu?" Onlar dedilər: "Bu yolda çox əziyyət çəkdik". Soruşduq: "Heç bir adam buna taqət gətirə bilməzmi?" Dedilər: "Allah qismət etsə olar". Soruşduq: "Bəs necə edək ki, əhli əzab olmayaq?" Dedilər: "Mövlanəyə mürid olmaqla mümkündür".*

Beləliklə, Mövlanədən icazənamə alan İbrahim Əfəndi Qalagaha qayıdaraq, Şeyx kimi fəaliyyətə başladı. O, elmi biliyinə və kəramətinə görə təkcə öz kəndində deyil, bütün Quba mahalında və Dağıstanda şöhrət qazandı və sevildi. Tezliklə Azərbaycanın bir çox bölgələrindən, həmçinin Dağıstan mahalından onun yanına müridlər gəlməyə başladılar.


*Əbdülvahab Əfəndi*

Şeyx İbrahim Əfəndinin İsmayıl, Əbdülvahab və Məmməd (Molla Məmməd) adında üç oğlu olmuşdur. Övladları da atalarının yolu ilə gedərək, İslam dininin təbliğində mühüm rol oynamış və Qafqazda Şeyx Şamilin rəhbərliyi ilə gedən müridizm hərəkatında fəal iştirak etmişlər. Onların bu fəaliyyəti çar Rusiyasını qəzəbləndirdiyindən atanı və üç oğulu həbs etmişlər. Molla Məmməd qaçaraq, İrana keçmiş, Əfəndi Baba iki oğlu ilə Sibirə sürgün olunmuşdur. (Sonralar Molla Məhəmməd İranda dəstə toplayaraq, Azərbaycana keçmək istəmiş, lakin gəlməyinə bir gün qalmış zəhərlənərək öldürülmüşdür.) Yeddi il bir yerdə qaldıqdan sonra İsmayıl Əfəndi ilə Əbdülvahab

Əfəndi Kazana göndərilmiş, ataları isə Səfəralı adlı müridi ilə Sibirdə qalmışdır.

Kazanda olarkən İsmayıl Əfəndi ömrünü başa vurmuş, qardaşı onu orada dəfn etmişdir. Lakin, vəsiyyət etmişdir ki, nə vaxt yuxuna gəlsəm, məni buradan çıxarıb, vətənimə aparарsan. Qəbrimi açanda isə, buradakı dostlarım yanında olsun.



*Ябдцлващаб Яфянди вя гардашы Исмайыл*

Aradan bir müddət keçəndən sonra Əbdülvahab Əfəndi Azərbaycana qayıdır. İki ildən sonra İsmayıl Əfəndi onun yuxusuna girərək, nəşinin çıxarılması barədə işarə verir. Əbdülvahab Əfəndi artıq qocalmışdı. Odur ki, oğlu Həmdullah Əfəndi ilə, Dəhnəli Hacı Nəcəfi Kazana göndərir. Onlar deyilən ünvanlarda İsmayıl Əfəndinin qəbri-şərifini və dostlarını tapırlar. Məsələdən agah olan dostlar əhalinin müqəddəs ziyarətgahına çevrilmiş şərif məzarın heç bir halda açılmasına razılıq verməyəcəklərini bildirirlər. Lakin, Dəhnəli Hacı Nəcəf xəncərini çəkərək: “Mən qəbri açmağa gedirəm, kimin hünəri varsa yaxın gəlsin” deyir. Övliyanın dostları əlacsız qalıb, qəbri özləri açırlar və nəşi tabuta qoyaraq, ehtiramla və göz yaşları içində yola salırlar.

İsmayıl Əfəndinin mübarək nəşini gətirən qatar Şabran stansiyasına çatanda, yerli əhalinin çox hissəsi onları qarşılamağa çıxmışdı. Ağsaqqallar Həmdullah Əfəndiyə: "Sağ ol ki, atanın cənazəsini vətənə gətirdin, sənə halal olsun" - deyəndə, Həmdullah Əfəndi: "Onu mən gətirmədim, onu Hacı Nəcəfin xəncəri gətirdi" - deyərək Hacının xəncərini göstərmişdir. Camaat övliyanın cənazəsini çiyinlərinə alıb, Qalagaha üz tutur. Həmin gün bütün bölgə əhalisi Qalagahda, İsmayıl Əfəndinin dəfn mərasiminə toplaşmışdı. Kənddə indiyədək görünməmiş qələbəlik vardı. Quba mahalının və Dağıstanın demək olar ki, bütün ağsaqqalları, nüfuzlu adamları bu mərasimdə iştirak etmək üçün Qalagaha gəlmişdilər. Ağsaqqallar təklif edirlər ki, cənazə açılmadan dəfn edilsin. Lakin Əbdülvahab Əfəndi etirazlara baxmayaraq cənazəni açır. İki il keçməsinə baxmayaraq, kəfən indi bükülmüş kimi idi. Əbdülvahab Əfəndi: "Baxın görün diri övliya necə olur"-deyib, qardaşının üzünü açır. İsmayıl Əfəndi sanki yuxuya dalıbmış kimi, sifətində, bədənində heç bir dəyişiklik olmadan uzanmışdı. Toplaşanlar bu möcüzədən heyrətə gəldilər. Allahu-Əkbər sədaları göylərə yüksəldi. Elə bu sədalar altında da İsmayıl Əfəndini atasının yanında dəfn etdilər.

İsmayıl Əfəndinin oğlu Həmdullah Əfəndi də dövrünün savadlı və çox böyük nüfuza malik şəxsiyyəti olmuşdur. O, İttihad partiyasının üzvü olmaqla, Azərbaycan Xalq Cümhuriyyəti dövründə Parlamentin üzvü seçilmişdir. Kafir ermənilər 1918-ci ildə Quba mahalında soyqırım törədəndə, həmçinin 1920-ci ildə bolşeviklər daşnaklarla birləşib Azərbaycana hücum edəndə Həmdullah Əfəndi ətrafına 2500 nəfərlik dəstə toplayaraq xalqın müdafiəsinə qalxmışdır. Ona bu döyüşlərdə dostu Qaçaq Mayıl 1500 nəfərlik dəstə ilə, Əli Bəy Zizinski 2000 nəfərlik dəstə ilə kömək edirdilər. Onların şücaətləri haqqında məndən qabaqkı müəlliflər geniş tədqiqat apardıqlarından, mən bu mövzu üzərində çox dayanmıram. Təkcə onu qeyd etməyi lazım bilirəm ki, düşmən Həmdullah Əfəndinin başına böyük məbləğdə pul qoysa da, istəyinə çata bilmir. Kafirlər daha murdar yola əl atırlar. Onlar mahalın qadınlarını toplayıb, işgəncə verməyə başlayırlar. Və Həmdullah Əfəndiyə xəbər göndərirlər ki, qadınların azad olmasını istəyirsənsə, silahı yerə qoy. O da məcbur olub döyüşü dayandırır və dağlara çəkilir. Bununla da Azərbaycanda sovet hökuməti qurulur.



*Щямдуллащ Яфянди*

Diqqətinizi maraqlı bir məqama cəlb edim ki, Həmdullah Əfəndi və onun ata-babaları Rus işğalına qarşı mübarizə aparsalar da, bu nəslin digər nümayəndələri olan Qəzənfər Musabəyov (Əfəndiyev), Ayna Sultanova (Əfəndiyeva) bu hökumətə inanaraq, ona xidmət edirdilər. Amma zaman göstərdi ki, düşmənə bel bağlamaqda onlar yanılıblar. Xidmətlərinin heç on ili tamam olmamış M.Bağırov onların güllələnməsi haqqında əmr verdi. Bunun ardınca da Həmdullah Əfəndi həbs olundu və güllələndi. Yaxın ətrafı ona təslim olmamağı, qaçmağı məsləhət görsələr də, cavab verib ki, "istəmirəm mənə görə yenidən qadınları incitsinlər". Lakin, Allahsızlar hökuməti yenə də qadınlardan əl çəkmədi. Həmdullah Əfəndi həbs olunduqdan sonra onun 103 yaşlı qoca anasını kəl arabasına uzandıraraq, qızları və nəvələri ilə birlikdə Qazax rayonuna sürgün etdilər. (Hazırda onun qəbri ziyarətgahdır və Qazax rayonunda "Qərib bacı" adı ilə tanınır.)

## SOLTAN BABA PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Şabran rayonunda möminlərin ziyarət etdikləri Allah dostlarından biri də Soltan Baba adı ilə tanınan övliyadır. Onun qəbri-şərifi Şabran rayonunun

Uqah kəndindədir. AMEA-nın Arxeologiya və Etnoqrafiya institutunun əməkdaşı, professor Məşədixanım Nemətovanın yazdığına görə burada əvvəllər daş kitabə olsa da, sonralar bu kitabə yoxa çıxmışdır. Kitabənin M. Nemətova tərəfindən edilmiş tərcüməsi aşağıdakı kimidir:

*“Bu türbə şeyxlərin məliki, zahidlərin (Sufilikdə III dərəcəyə çatmışlara zahid deyilir.) qütbü Şeyx Əbu Bəkrindir – Allah ona rəhmət eləsin. Bu türbəni məmləkətlərin sultanı, qadir Fərruxzad ibn Əxistan (vaxtında) Nəcəf Məhəmməd bin Nasir beş yüz doxsan dördüncü (1197-1198) il tarixdə tikdirdi.”*



Kitabədən göründüyü kimi Şeyx Əbu Bəkr yüksək titulları olan ruhani alimdir. O, sufiliyi təbliğ edən cəmiyyətin şeyxi olaraq, bölgə əhalisi tərəfindən sevilmiş və zaman-zaman ziyarət olunmuşdur.

## PİRƏZƏNBİL PİRİ

*Rəhman və Rəhim olan Allahın Adı ilə*

Bu pir *Xaçmaz* rayonunun *Padar* kəndində yerləşir. Burada iki övliyanın qəbri vardır ki,

onların adları dəqiq bilinmir. Orta əsrlərə aid olan bu qəbirlər hələ ta qədimdən yerli əhali tərəfindən müqəddəs sayılır və müxtəlif niyyətlərlə ziyarət olunur. Ziyarətə gələnlərin əlində zənbil olduğundan, pirin adı *pirəzənbil* kimi qalmışdır (düzgünün  allah bilir).





Burada hər həftənin çərşənbə və şənbə günləri qələbəlik olur. Söhbət etdiyim ziyarətçilər müxtəlif niyyətlərlə bu piri ziyarət etdiklərini  və niyyətlərinin hasil olduğunu dedilər. Pirin kəramətlərinə dair Quba rayonunun Barlı kənd sakini Seyidəhmədova Səidə Kamil qızı bunları dedi:

- Oğlum Yusifin bir yaşı var, üç gündür qızdırması 39-dan aşağı düşmür. Həkim iynə vuranda 38-ə düşür. Uşaq üzüstə qalıb. Bu gecə yuxumda gördüm ki, uşağı qollarımın üstünə alıb, harasa aparıram. Birdən gördüm bu pirin həyətindəyəm. Ağ saqqallı, əmmaməli, nurani bir kişi məni qarşılayıb, uşağı yanındakı böyük bir daşın üstünə qoymağımı istədi. Dediyini etdikdə

dua oxuyaraq, əlini uşağın üzərinə çəkdi, dedi Allah şəfa verəcək. Bu vaxt mən yuxudan ayıldım. Səhər tezdən Yusifi də götürüb, ailəlikcə bura ziyarətə gəldik. Artıq axşamüstüdür, hələ uşağın qızdırması qalxmayıb, normal oynayır.

## ŞEYX ÖMƏR BABA

*Rəhman və Rəhim olan allahın adı ilə*

Şeyx Ömər Babanın müqəddəs məzarı *Xaçmaz* rayonunun *Vələmir* kəndi ərazisində, meşənin içərisində yerləşir. Azərbaycanın şimal bölgəsinin əhalisi, həmçinin qonşu Dağıstan müsəlmanları onun qəbrini sevə-sevə ziyarət edib, ruhuna dualar oxuyurlar.

### *Ziyarətgahın ağaclarını qırmaq istəyənlər bir-birlərini qırdılar*

Sovet hökuməti yeni qurulanda əsgərləri göndəriblər ki, övliyanın qəbrinin olduğu meşəni qırsınlar. Kənd ağsaqqalları onları başa salmağa çalışırlar ki, ziyarətgahın ağaclarını qırmaq olmaz, ziyan çəkərsiniz. Əsgərlər öyüd-nəsihətə məhəl qoymayıb, işə başlamaq istəyəndə öz aralarında dava düşür və əllərindəki balta ilə biri-birlərini çapmağa başlayırlar. Beləliklə, bir neçəsi ölüb, bir neçəsi yaralandıqdan

sonra əsgərlər qayıdıb gedirlər və bir daha ora qayıtmırlar.

### *Pirə toxunan birinci katibin ağzı əyildi*

1970-ci illərin əvvəllərində Xaçmaz rayon Partiya Komitəsinin birinci katibinin göstərişi ilə Şeyx Ömər Babanın ziyarətgahına aparan yolda köndələn xəndək qazılır ki, ziyarətçilər keçib gedə bilməsinlər. Həmçinin pirdəki qab-qacaq yük maşınına yüklənərək, Sumqayıt şəhərindəki util zavoduna göndərilir. Lakin, yük maşınının sürücüsü Allahın qəzəbindən qorxaraq, qabları Beşbarmaq dağında yerləşən Xıdırzində pirinə boşaldır. Katibi inandırmaq üçün isə, Sumqayıta gedərək, zavoddan təhvil aktı alır. Allahın qəzəbi özünü çox gözlətmir. Elə həmin gecə katibin ağzı əyilir. Həkimlər çox müalicə etsələr də, faydası olmur. Əlacsız qalıb, Vələmir kəndinə, Ömər Babanın nəslindən olan Məhəmməd kişinin evinə üz tutur. Katib ondan üzr istəyərək, ağzının düzəlməsi üçün dua etməsini istəyir. Məhəmməd kişi babalarından qalan əsanı onun üzünə sürtür və gecəikən ziyarətə aparır (katib gündüz ziyarət etməyə qorxurdu). Nəhayət, yolu düzəldib, qabları yerinə qaytarandan sonra katibin ağzı düzəlir.

***Ziyarətçilər övliyanın kəramətindən faydalanırlar***

Burada niyyət tutanların niyyəti övliyanın duası ilə tez hasil olur. Bu mövzuda ziyarətçilər mənə çox əhvalatlar danışdılar. Oxucuların marağını nəzərə alıb, həmin əhvalatlardan bir neçəsini diqqətinizə çatdırıram.

*Məmmədova Şəfiqə Kamal qızı – Xaçmaz şəhəri, Fətəlixan küçəsi, ev 6:*

- Otuz yeddi ildir ailə qurmuşam, son illərə qədər evimiz yox idi, iki uşaqla kirayələrdə yaşayırdıq. Uşaqlar böyüdükcə evsizlik məni narahat edirdi. Bir neçə il bundan qabaq Şeyx Ömər Babanın ziyarətinə gəldim və bu kəramətli övliyanı vəsilə tutaraq, Allahdan ruzimizi artırmağı və ev-eşik sahibi olmağımızı istədim. Niyyət tutdum ki, arzularım həyata keçsin, bu ziyarətgahda qurban kəsərəm. Şükür Allaha ki, niyyətim qəbul olundu. O gündən sonra ruzimiz artmağa başladı. İndi ev-eşiyimiz də var. Dualarımın qəbulunda vəsilə olduğu üçün tez-tez gəlib Ömər Babanı ziyarət edirəm.

*Bəyova Həzrə Bəxtiyar qızı – Xaçmaz rayonu, Vələmir kənd sakini, Şeyxin törəməsi:*

- Ailə qurmağımdan beş il keçməsinə baxmayaraq, övladımız olmurdu. Müalicənin də xeyri olmurdu. Bir gün bir görücünün yanına gedib, ondan məsləhət istədim. Dedi sənin arxanda böyük bir övliya dayanıb,

niyə ondan yardım istəmirsən? Dedim o mənim ulu babamdır, həkimə getməzdən qabaq onu ziyarət edirəm. Dedi sənin bu cür hərəkət etməyin babanın xoşuna gəlmir. Çünki, o səni tək müalicə etmək istəyir, həkimsiz.

Evə qayıdandan sonra maraqlı bir yuxu gördüm. Gördüm Ömər babamın məzarının yanındayam, babam əlində su bardağı tutub, hansı ki, həmin bardaq həmişə məzarın üstündə olur. Mənə dedi: "Mənim xəstə balam, gəl səni müalicə eləyim". Belə deyib, məzarın üstündəki daşla üzümə, sinəmə sürtdü. Bu vaxt yuxudan ayıldım. Sabahı gün ziyarətə getdim. Bir müddətdən sonra hamilə qaldım və qızım Yaqut dünyaya gəldi.

*Müxubəliyev Cəlal Müxubəli oğlu – Xaçmaz rayon Hacalıbəy kənd sakini:*

- Uzun müddət idi ki, təzyiqdən əziyyət çəkirdim. Tez-tez təzyiqim 180-200-ə qalxırdı. Müxtəlif həkimlərə müraciət etmişdim, deyirdilər ki, qorxudan, ya da stresdən yaranıb. Uzun müddət müalicələr alsam da, xeyri olmurdu, arabir təzyiq qalxıb məni pis vəziyyətə salırdı. Bir gün bir qoç qurbanı götürüb Vələmir kəndinə - Şeyx Ömər Babanın ziyarətinə getdik. Qurbanı kəsib, Quranını oxudandan sonra mən orada yatdım. Və həmin gündən 5-6 il keçib, hələ də təzyiqim qalxmayıb.

Şeyx Ömər Babanın bildiyimiz qədər Mürşid və Cümşüd adında iki oğlu olmuşdur ki, onlar da atalarının yolunu davam etdirdiklərindən, xalq arasında "Şıx" təxəllüsü ilə çağrılmışlar.

Şıx Cümşüdün oğlu Şıx Qasım Babanın da qəbri Ömər Babanın qəbrinin yanındadır.

Şeyxin nəslinin törəmələri bugün də Vələmir kəndində yaşayırlar.

## ŞEYX YUSİF MÜSKÜRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Azərbaycanın şimal bölgəsində ən çox ziyarət edilən övliyalardan biri də Şeyx Yusif Əfəndidir. Onun şərif məzarı *Xaçmaz* rayonunun *Şıxlar* kəndindəki günbəzdədir.



Haşimilər nəslindən olan və soykökü Həzrət Əli və Həzrət Fatimə vasitəsi ilə Peyğəmbər Əfəndimizə bağlanan Şeyx Yusifin şəcərəsi bu gün Xaçmaz rayonunun Seyidlər kəndindəki törəmələrinin evində saxlanmaqdadır. Tam adı Yusif ibn Əli əl-

Fazil əl-Hüseyni, künyəsi Əbül-Füyuzat, ləqəbi Ziyaəddindir.

Abbasqulu ağa Bakıxanov Mövlana Şeyx Molla Yusif haqqında "Gülüstani-İrəm" əsərində belə məlumat vermişdir: "Onun ulu babaları Qubanın Müskür nahiyəsinə Qarabağdan gəlmişlər. Şeyx cənabları hicri səkkizinci əsrin ortalarında dünyaya gəlmişdir. Təriqət mərasimini təkmil etdikdən sonra, Seyid Yəhya Bakuvidən (XIV-XV əsrlər) irşad xirqəsi almış və təriqət saliklərinin üzünə feyz və təbliğ qapılarını açmışdır. Şeyxin məzarı və onların yurdu olan kənd Şıxlar adı ilə adlanmışdır. Onun əsərlərindən ancaq "Bəyanül-əsrar" adlı ərəbcə kitabı bizə gəlib çatmışdır. Bir müqəddimə və 24 fəsildən ibarət olan bu kitab, əşyanın maddi və mənəvi xüsusiyyətlərinə, təriqət sahibləri və füqəranın adət və ədəbinə aid olan geniş mövzuları müxtəsər bir surətdə izah edir. Hicri səkkizinci əsrin axırlarında vəfat etmişdir".

Tədqiqatçı Mehmet Rıhtımın araşdırmalarına görə Şeyx Yusifin vəfat tarixi 1485 miladi ilidir. Onun atası Şirvanın qazil-quzatı və dövrünün nüfuzlu alimlərindən olmuşdur. İlk təhsilini atasından alaraq, doqquz yaşında Quranı oxumağı tam öyrənib başa çatdırmış, həddi-buluğa yetəndə dərs deməyə başlamışdır. Sonralar Həccə gedərək Misir, Qüds, İsgəndəriyyə, Bağdad və Şamda olmuş, buradakı böyük alimlərdən dərs

alaraq, elmi biliklərini təkmilləşdirmişdir. Daha sonra Şamaxıya gələrək, elm tədrisi ilə məşğul olmuşdur.

Seyid Yəhya Bakuvidən dərs almağı ona Həzrət Peyğəmbərimiz yuxusunda tövsiyə etmişdir. Yusif Əfəndi dərhal Bakıya gələrək, Seyid Yəhyaya yetişmiş və ona mürid olmuşdur. Şeyxinin əmri ilə xəlvətə girmiş[1] çətin riyazətlər ilə böyük mərtəbələr keçib, xəlifəlik məqamına çatmışdır.

Seyid Yəhya onu irşad üçün Şamaxıya göndərmişdir. Burada onun yüzlərlə müridi olmuşdur.

Nəzminin yazdığına görə Seyid Yəhya Bakuvi ölümündən əvvəl xəlifələri və müridləri toplayaraq, "məndən sonra səccadə və Allahın əmanəti Məxdumundur"- demişdir. (Bakuvi əzizləmə mənasında Yusifə "Məxdum" təxəllüsü vermişdi.) Lakin Seyid Yəhya dünyasını dəyişəndə onun ortancıl oğlu Fətullah atasının səccadəsində oturmuş, Yusif Məxdum da ona güzəşdə gedərək, müridləri sakitləşdirmişdir. Daha sonra Şeyx Yusif Şamaxıya gələrək, burada irşad etmiş, bir müddətdən sonra isə Qubanın Müskür nahiyəsində fəaliyyətini davam etdirmişdir.

[1] Xəlvətə girmək - qaranlıq otaqda 40 gün qalaraq, ətraf aləmlə əlaqəsini kəsib, ancaq ibadət və zikr etmək, quran oxumaqla məşğul olmaqdır. Bu müddətdə mürid ancaq məhdud miqdarda su və quru çörəklə qidalanır.

Qəbri-şərifi Xaçmazın Şıxlar kəndindəki günbəzdədir. Həmin günbəzdə Şeyxin oğlu Məhəmməd Əminin və digər şeyxlərin də qəbirləri vardır.

AMEA-nın professoru Məşədixanım Nemətova Məhəmməd Əminin qəbrinin üstündəki ərəbcə yazını bu cür tərcümə etmişdir:

"Bu qəbir, Mövlana Şeyx Yusifin oğlu, mərhum Məhəmməd Əminindir. Səkkiz yüz altmışıncı il" (1455-1456 miladi ili).

M.Nemətovanın tədqiqatlarından o da məlum olur ki, Şeyx Yusifin digər övladları və nəvələri də onun yolunu davam etdirərək, şeyxlik titulu qazanmışlar. Bunu günbəzdən çöldəki qəbrlərin üstündəki yazıların tərcüməsindən görmək olur:

*"O əbədidir, əzəmətlidir. Bu, Şeyx Yusif Müskürünün övladı, mərhum, bağışlanmış Şeyx Əşrəfindir".*

*"Bu qəbrin sahibi Şeyx Əşrəfin oğlu rəhmətlik, günahları bağışlanmış İsgəndərindir. Allah ona rəhmət eləsin".*

*"Onun sahibi və maliki, bu qəbr Şeyx Mövlana Yusifin övladlarından Şeyx Əşrəfin oğlu Şeyx Tahirindir. Allah ona rəhmət eləsin. Səfər ayı".*

Şeyx Yusif Əfəndinin nəsil şəcərəsi bu gün də davam etməkdədir. Belə ki, onun törəmələri

Xaçmaz rayonunun Seyidlər kəndində və Dağıstan respublikasında yaşamaqdadırlar.

## MURAD PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Murad piri adı ilə tanınan ziyarətgah *Xaçmaz* rayonunun *Qarğalı* kəndinin ərazisində yerləşir. Neçə əsrlərdir ki, insanlar burada etdikləri dualarla murada çatdıqları üçün, pirin adı da bundan yaranmışdır. Burada ən çox yel xəstəliyindən (və digər xəstəliklərdən) əziyyət çəkənlər şəfa tapdıqlarından, el arasında “Yel piri” də deyirlər. Buradakı günbəzin içərisində kəramətli bir övliyanın qəbri vardır. Əvvəllər qəbrin üzərində yazılı daş olsa da, 2000-ci ildə burada günbəz tikilərkən həmin daş yoxa çıxmışdır.

Keçən əsrin əllinci illərində bu kəndin sovxoz direktoru Murad pirini dağıdıb, yerində əkin əkmək istəyib. Bu məqsədlə Rus millətindən olan bir traktorçunu ora göndərib. Amma rus nə qədər cəhd etsə də, traktor pirə toxuna bilməyib. Hər dəfə qəbrə yaxınlaşanda motor sönürmüş. Nəhayət, əlacsız qalıb, geri qayıdıb. Ondan sonra heç kəs piri dağıtmağa cürət etməyib.

Xaçmazda olarkən Murad pirinin kəramətindən faydalanan bir çox insanlarla rastlaşdım. Onlardan birinin söhbətini diqqətinizə çatdırıram.

*Nadirov Əvəz Abuzər oğlu – Xaçmaz rayonunun Çarxı kəndinin 60 yaşlı sakini:*

- Gəncliyimdə möhkəm xəstələnmişdim, yerimdən tərpənə bilmirdim. Müalicələrin də effekti yox idi. Bir gün qohumlarım məni maşının arxa oturacağına uzandırıb, Murad pirinə apardılar. Çatanda da əllərimdən, ayaqlarımdan yapışıb, maşından düşürdülər və övliyanın qəbrinin yanına uzandırdılar. Mən burada övliyanı vəsilə tutub, Allahdan özümə şəfa dilədim. Sonra mənə pirin tütyəsindən içirdilər. Qayıdandan sonra yaxşılaşmağa başladım. Üç gündən sonra mən işə çıxdım. Hansı ki, mən neçə illər idi yel xəstəliyindən əziyyət çəkirdim. Hərdən bir az yaxşılaşıb, gəzsəm də, bir yanı üstə gəzirdim, düz yeriyə bilmirdim. İndi düz yeridiyimi görüb, yoldaşlarım hamısı təəcüblənirdilər. Həmin gündən iyirmi ildən çox vaxt keçib, hələ də xəstələnməmişəm.

## *Coşan ələm*

Murad pirini ziyarət edərkən mənə Hacılar kəndinin bələdiyyə sədri Məşhədi Əbülfəz bələdçilik edirdi. Qonaqpərvər bir ziyalı olan Əbülfəz müəllim məni evinə qonaq dəvət etdi. Böyük məmuniyyətlə dəvəti qəbul edərək, onlara gəldik. Kənd ağsaqqalları 72 yaşlı Kərbəlayi İslam Nuru oğlu və Hacı Nəzər İmanqulu oğlu da gəlişimizi eşidib, söhbət etməyə gəldilər. Onlar sovetlərdən qabaq Hacılar kən-



dinə gətirilmiş ələmin coşmasından tutmuş, kəramət sahibi Seyid Mircəfər ağanın yağış yağdırmasına qədər, şahid olduqları bir çox maraqlı əhvalatları danışdılar. Oxucuların marağına səbəb olacağını nəzərə alıb, həmin söhbətlərin bir hissəsini kitaba daxil etmək qərarına gəldim.

*Kərbəlayi İslam Nuru oğlu:*

- Kəndimizdə bir neçə evdə ələm var. Onlardan ancaq biri – rəhmətlik Gülhüseyn kişinin evindəki ələm coşan ələmdir. Onun babaları Nikolay zamanında Kərbəladan gətiriblər. Deyilənə görə imamlarımızın döyüşlərdə istifadə etdikləri ələmdir. Həmin ələm də hər adamın əlində gəzmir. Mən cavan uşaq olanda qonşu Qarağaşlı kəndindən Abdulla adında kişinin əlində gəzən görmüşəm onu. Hər il Məhərrəm ayında Abdulla kişi gəlib ələmi gəzdirərdi. Çox maraqlı və unudulmaz səhnələr idi. Camaat ələmin gəzməsinin həqiqiliyini yoxlamaq üçün verəcəkləri nəziri aparıb uzaq bir yerdə gizlədirdilər ki, görək onu tapacaqmı? Abdulla dayı xahiş edirdi ki, evin damında, ağacın başında gizlətməyin, yıxılıb, qol-qıçımı sındıraram. Nəziri gizlətdilər. Abdulla dayı dua oxumağa başladı. Ələm coşub, sürətlə irəli şığıdı və

Abdulla kişini də özü ilə bərabər yüyürtdürməyə başladı. Camaat gördü ki, ələm kanala doğru gedir, kişini kanala salacaq, beş-altı nəfər yüyürüb, onu qucaqladılar ki, dayandırsınlar. Amma ələm onlardan güclü oldu, Abdullanın qolundan, paltarından yapışan adamlar yerdə bir qədər sürünəndən sonra məcbur olub əllərini buraxdılar. Ələm dərin su kanalından keçmək istəyəndə, Abdulla kişi cəld tərpənib, onu qurşağından çıxartdı. Beləliklə, ələm sakitləşdi. Kişi kanalın körpüsündən keçəndən sonra ələmi yerinə taxıb, axtarışı davam etdirdi. Nəhayət, həyətlərdən birində, ağacın koğuşunda gizlədilən nəziri tapdıqdan sonra ələm sakitləşdi. Bu cür ağır sınaqdan çıxandan sonra kənd camaatı hamısı ələmə nəzir verirdilər. Bu sınaqlar hər il Məhərrəm ayında təkrarlanırdı.

*Hacı Nəzər:*

Sovet dövründə Aşurə mərasimini keçirməyə icazə vermirdilər. Ona görə də mərasimi evlərdə gizli keçirirdilər. Kəndin girişində, çıxışında atlı adamlar dayanırdılar ki, polis gələndə camaata xəbər versinlər. Bir il mərasim Gülhüseyn kişinin evində keçirilirdi, cavan olsam da, mən də məclisdə iştirak edirdim. Mərsiyə deyilən vaxt, evdə möhkəm taqqıltı eşitdik. Gördük səs otağın küncündəki sandıqdan gəlir. Sanki içəridən bir adam sandığı döyəcləyirdi. Mərsiyəni dayandırıb, hamı heyrətlə sandığa tərəf baxdı. Ağsaqqallardan biri sandığı açanda, içərisində həmin ələmin

olduğunu gördük. Mərsiyə oxunduqca ələm coşub, sandıqdan çıxmaq istəmişdi. Özünü necə qəzəblə sandığın divarlarına vurmuşdusa, barmaqlarının ikisi qırılmışdı.

## *Seyidi suya atanda yağış yağırdı*

*Kərbəlayi İslam:*



- Bizim bu Hacılar kəndində Seyid Mircəfər ağa adında təqvalı bir seyid yaşayırdı. Çox gözəl insan idi. Xəstələnəndə həmişə onun yanına gedər, o da əlini başımıza çəkərdi, bizə dua edərdi, onunla da ağrımız keçib gedərdi. əndimizdə sınaqdan çıxmış bir adət də vardı ki, yay quraqlıq keçəndə Mircəfər ağanı, ya da onun qızı Seyid Zəhranı qəflətən itələyib suya salardılar, onlar da hirslənərdilər, həmin gün mütləq yağış yağardı. Sonra camaat onlara nəzir gətirərdi ki, hirsləri soyusun. Çünkü bu cur hallarda onlar o qədər möhkəm hirslənərdilər ki, rəngləri qapqara qaralardı. Mən özüm bir neçə dəfə bu cür hadisənin şahidi olmuşam.

*Hacı Nəzər:*

- Mən də Seyidin suya atılmasını bir neçə dəfə görmüşəm. 1950-ci illər idi, yay quraqlıq keçirdi. Çoxdandı yağış yağmadığından, camaatın əkinləri yanırdı. Bir gün kəndin kişiləri kolxozun istixanasının yanındakı gimgədə toplaşıb, söhbətləşirdilər. Söhbət quraqlıqdan düşəndə, briqadir Məmmədşah dedi gəlin Mircəfər ağanı salağın suya, yağış yağsın. Təklifi hamı bəyənsə də, bu işi icra etməyi heç kəs öz üstünə götürmək istəmirdi. Məmmədşah dedi ki, bu işi mən eləyərəm, amma siz nəziri qabaqcadan toplayın. Oradakı adamlar əllərini ciblərinə salıb, hərə imkanı daxilində nəzir çıxartdı. Bir nəfər nəzirləri topladı. Bu vaxt gördük Seyid bizə tərəf gəlir. Gəlib çatanda, Məmmədşah onu götürüb, yaxınlıqdakı su quyusuna saldı. Hirsindən ağanın rəngi qapqara qaraldı. Onu quyudan çıxardandan sonra toplanan nəzirləri verib, üzürxahlıq elədilər ki, yağışa görə elədik. Mircəfər ağa paltarını dəyişmək üçün evinə getdi. Bu hadisə səhər-səhər baş vermişdi. Axşam üstü yağan yağış kəndin bütün əkinlərini suladı.

Müəllifdən: Yuxarıda haqqında söhbət açılan ələm Hacılar kəndində bu gün də saxlanmaqdadır. İndi onu gəzdirən olmasa da, bir şey itirənlər gəlib onu ziyarət edirlər. Çünkü, camaat arasında olan inanca görə bu ziyarətdən sonra itən şey mütləq tapılır.

# PİR MAHMUD BABA

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Pir Mahmud Baba övliyaların görkəmlilərindəndir. Onun müqəddəs ziyarətgahı *Siyəzən* rayonunun *Sədan* kəndindədir. Bölgə əhalisi müxtəlif niyyətlərlə Pir Mahmud Babanı ziyarət edib, Allaha etdikləri dualarda onu vəsilə tuturlar. Buradan edilən dualar Haqq dərgahında tez qəbul edildiyindən övliyanın ziyarətçiləri əskik olmur. Bu ziyarətçilərdən biri də Sədan kəndinin 72 yaşlı sakini Cəfərov Şahbala Şahmərdan oğludur. O, Pir Mahmud Babanın kəraməti haqqında bunları dedi:

- Təxminən on il bundan qabaq yel xəstəliyindən ağır xəstə yatırdım. Neçə ay idi ki, qıc olub qalmışdım. Bir gün məni maşına uzandırıb gətirdilər Pir Mahmud Babanın ziyarətinə. Burada dua etdim, tütyəsindən içdim, qayıdandan sonra üç gün pəhriz saxladım. Üç gündən sonra artıq mən tam sağalıb, yeriməyə başladım. Ondan sonra bir daha elə bir xəstəlik keçirməmişəm.

Sədan kəndində olarkən evində qonaq qaldığım Muradov Əhməd (Sabir) Məhəmməd oğlu da həm öz

kəndlərindəki, həm də bölgədəki pirlərin kəramətləri haqda maraqlı əhvalatlar danışdı. Onunla söhbətimizin bəzi məqamlarını oxuculara təqdim edirəm:

-Kəndimizdə bir neçə pir var. Pirbənövşə adlanan ziyarətgaha əsasən çöpü qalan körpə uşaqları aparırlar. Oranın torpağından uşağın boğazına sarıdıqda, həmin uşağın çöpü qalmır. Kənd camaatının ən çox üz tutduğu ziyarətgahlardan biri də Həzrət Babadır. Mən özüm 35 il dalbadal oranı ziyarət etmişəm və çox kəramətlərinə şahidəm. Bir dəfə orada bir qadının övlad üçün necə göz yaşı töküb dua etdiyini görəndə bağrım qana döndü, uzun müddət bu hadisəni unuda bilmədim.  Elə hey fikirləşirdim ki, görəsən Allahtəala o qadının duasını qəbul etdimi? Rəbbim öz quluna  hər şeyi aşkar göstərir. Gələn il Həzrət Babanı



ziyarət edəndə həmin qadınla yenidən rastlaşdım. Qucağında körpə uşaq görəndə sevincimin həddi-hüdudu olmadı. Allahın qüdrətinə və övliyanın kəramətinə bir daha əmin oldum. Bir il də Həzrət Babanın ziyarətinə gedəndə bizimlə bir qrupda bir qadın da vardı, rayonda həkim işləyir. Köhnə tanışım olduğundan soruşdum ki, sən hansı niyyətlə gedirsən? Dedi: “Kiçik qardaşımı mən evləndirmişəm, 5-6 ildir ailə qursalar da övladları olmurdu. Qardaşım ayrılmaq

istəyirdi, qoymurdum ki, arada mən varam, qızın ailəsi mənə yaxın ailədir, mən zamin durmuşam. Nə isə... iki ailənin arasında çıxılmaz vəziyyətdə qalmışdım. Keçən il üz tutdum Həzrət Babaya. Burada dua edib, düşdüyüm çətin vəziyyətdən çıxmaq üçün Allahdan Həzrət Baba xatirinə bu ailəyə bir övlad İstədim. Şükür Allaha duam qəbul olundu. Bu yaxında qardaşımın ailəsində övlad dünyaya gəldi, bununla da söz-söhbətə son qoyuldu. Mən də əhdimə əməl edib, qurban kəsməyə gedirəm".

Sonda müsahibim aşıq Haşimin övliyalara ithaf etdiyi bir şeirini dedi:

*Haqqın kəlamını o Peyğəmbərə*
*Cəbrail gətirib qiraət eylər.*
*Saysız-hesabsız övliyaları*
*Müsəlman olanlar ziyarət eylər.*

*Həzrət Babamızın qarlıdır başı,*
*Xızır Zindədən cavandır yaşı.*
*Xızır Nəbi – Xızır İlyas qardaşı,*
*Köməyə çağırsan salamat eylər.*

*Seyid Xəlfə Baba, Əfəndi Baba,*
*Heç kimi naümüd qoymaz dünyada.*
*Səadan kəndində Pir Mahmud Baba –*
*Dərdi olan onu ziyarət eylər.*

*Şirvan torpağında tutubdur qərar,*
*Dədəgünəş Baba külli ixtiyar.*
*Şıx Əli Babaya bel bağlayanlar*
*Fəqir-füqarəya mərhəmət eylər.*

*Haqdan gələn kitab əzizdir, birdir,*
*Bizi gözləməyib saatlar gedir.*
*Çağırıb pirləri hər səhər bir-bir,*
*Haşim əl üzünə salavat eylər.*

Biz də öz növbəmizdə adı çəkilən övliyaların ruhlarına salam və salavat göndərərək Sədan kəndindən ayrılırıq. Qoy Pir Mahmud Babanın xeyir-duası onu ziyarət edənlərin üzərindən əskik olmasın! Amin.

## HƏZRƏT BABA ZİYARƏTGAHI

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Həzrət Baba ziyarətgahı Quba rayonunun İsmayıllı ilə sərhəddində, Şah dağın zirvəsində, dəniz səviyyəsindən 3626 metr yüksəklikdə yerləşir. Bura həm Qubadan, həm də İsmayıllıdan keçməklə getmək mümkündür.

Həzrət Babanın yaşadığı tarix məlum deyildir. Məlum olan odur ki, övliyaların qütbü sayılır. Azərbaycanda yaşamış bir çox məşhur övliyalar – Şıx Eyyub Baba (1730-1797), Mövlanə Hacı İsmayıl Kürdəmirli (1782-1848), Ərəş mahalından Şeyx Yusif Əfəndi və digər kəramətləri ilə məşhur olan Allah dostları Həzrət Babanı özlərinə mürşid sanmış, ondan mənəvi feyz (ilham) almışlar. Və elə bu ilhamla da uca məqamlara yüksəlmişlər. Onlar öz sağlıqlarında ilin istənilən fəslində Həzrət Babanı ziyarət etmişlər. Və bu yolu davam etdirməyi öz müridlərinə və sevənlərinə vəsiyyət etmişlər. Bu vəsiyyətlərə əməl edən möminlər neçə əsrlərdir ki, Həzrət Babanın nurundan və xeyir duasından bəhrələnmək üçün bu çətin yolu qət edirlər. Gəmilər dənizdə azmamaqçün mayaka baxdıqları kimi, insanlar da həyat dənizində

yollarını azmamaqçün Həzrət Babanın əbədi nurundan faydalanırlar.

Həzrət Babanın xeyir-duasına və nuruna möhtac olan qullardan biri olduğumdan, ilk dəfə 90-cı illərin əvvəllərində bu işığa doğru yola çıxdım. Xoşbəxtlikdən əziyyətim hədər getmədi – Həzrət Babadan aldığım ilhamla *"Allahın dostları"* kitabını yazdım və onun xeyir-duasıyla çap etdirdim. Həzrət Babaya xitabən yazıb, həmin kitaba daxil etdiyim *"Ay baba"* şerim övliyasevərlər arasında çox məşhurlaşdı. Fürsətdən istifadə edərək, həmin şeri bir daha dəyərli oxucularımın diqqətinə çatdırıram ki, əvvəlki kitabımı oxumayanlar burada tanış olsunlar.

**AY BABA**

Cəmi müsəlman adını
Müqəddəs tutur, ay Baba.
Sənin mübarək ruhun
Göylərdə uçur, ay Baba.

Bu dünyanın sərt çağında
Qaldıq düşmən qabağında.
Qoyma kafir ayağında,
Bizə arxa dur, ay Baba.

Allahsızlar haqqı danır,
Şeytanı da Allah sanır.
Haqqın özü də tapdanır,
Nə yatmısan, dur, ay Baba.

Zülm edir zalım şahımız,
Göylərə çatmır ahımız.
Yəqin çoxdur günahımız,
Tərəzini qur, ay Baba.

Qarışıbdır quruyla yaş,
Naxələflər kəsirlər baş.
Bizə zamin olaydın kaş,
Çalınanda SUR, ay Baba.

*(Müəllifin arxivindən)*

<

# AĞBİL PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Qubalıların və bolgə əhalisinin ehtiramla ziyarət etdikləri müqəddəs yerlərdən biri də Ağbil piridir. Bu pir Quba-Qusar şosse yolunun sağ tərəfində, Ağbil kəndinin ərazisindəki qəbiristanlıqda yerləşir. Həmin qəbiristanlıqda vaxtilə üç günbəz olsa da, günümüzə yalnız ikisi gəlib çatmışdır. Günbəzin biri düzbucaqlı olmaqla, kitabəsi yoxdur. Digər günbəz isə, xaricdən səkkizguşəli, daxildən isə dördbucaq olmaqla, "Şeyx Məzyəd" türbəsidir. Türbənin qapısı üzərində əhəng daşına həkk olunmuş üç sətirlik kitabə vardır. Kitabədə aşağıdakı sözlər yazılıb:



*"Bu bina sultan oğlu sultan, Sultan Xəlilullah zamanında – Allah onun sayəsini əskik etməsin – Sufi Rəfiəddinin oğlu ağıllı şeyx, Şeyx Məzyədin məzarı üzərində doqquz yüz qırxıncı il tarixində (1533-1534) tikildi."*

XIX əsrdə burada tədqiqat aparmış rus tarixçisi B. Dorn digər türbədəki kitabəni tərcümə etmişdir. Tərcümədən məlum olur ki, türbədə dəfn olunan Şeyx

Məzyədin oğlu Şah Muraddır və o, Şeyx Bəyazidin nəvəsidir:



*"De: Ey özləri öz əleyhlərinə çıxan qullarım! Allahın mərhəmətindən ümidsiz olmayın. Həqiqətən (tövbə etdikdə) Allah bütün günahları bağışlayır. Çünki, O, bağışlayan və mərhəmətlidir (Quran). Bu bina sultan oğlu sultan, Sultan Xəlilullah* – Allah onun dövlət və səadətini əbədiləşdirsin - *zamanında Allahın rəhmətinə getmiş, günahları bağışlanmış, xoşbəxt şəhid Şah Murad bin Şeyx Məzyəd bin Xacə bin Şeyx Bəyazid* – Allah onu və bütün möminləri bağışlasın – *üçün doqquz yüz qırxıncı (1533-1534) ildə tikilmişdir".*

Kitabələrdə yazılanlardan məlum olduğu kimi, türbələrdə dəfn olunanlar kəramətli övliyalar olmaqla, həyatlarını İslam dininin inkişafına və cəmiyyətin mənəvi dirçəlişinə həsr etmiş, bu yolda da şəhid olmuşlar. Odur ki, qədirbilən Azərbaycan xalqı onların əməyini unutmur, müqəddəs məzarlarını daim yad edərək, Allaha etdikləri dualarda övliyaları vəsilə tuturlar. Pirdə dəfn olunan övliyanın üzünün nuru xatirinə Rəbbim indiyədək burada edilən yüzlərlə,

minlərlə duaları qəbul etmişdir. Odur ki, burada ziyarətçilərin ardı-arası kəsilmir. Bu kitabı yazarkən, mən də bir neçə saat Ağbil pirində oldum və pirin kəramətindən faydalnmış onlarla ziyarətçidən müsahibə aldım. O müsahibələrdən bəzilərini diqqətinizə çatdırıram.

*Vəlicanova Almaxanım Hətəm qızı – Şabran rayonu, Dəvəçi kəndi:*

- Bir neçə il idi ki, barmaqlarımda yaralar vardı, çox müalicələr etdirsəm də, xeyri olmurdu. Nəhayət bu pirə üz tutdum. Burada mücövürçü qadın qəbrin torpağından suya qarışdırıb, yaralarıma sürtdü. Bir neçə gündən sonra barmaqlarımdakı yaralardan əsər-əlamət qalmamışdı.

### ***Mənim pirlərə inamım olmayıb***

*Nəcəfova Şərqiyyə Sabir qızı* - *Şabran rayonu, Dəvəçi kəndi:*

- Uşaqlıqdan sağ əlimin şəhadət barmağının uc hissəsində ziyil kimi bir çıxıntı vardı, əlimi bir şeyə vuranda ziyilin ucu ağrıyırdı. Məni çox incidirdi, müalicələrin də xeyri olmurdu. Evimizin yanında “Çinarlı piri” adlanan pir vardı, hamı deyirdi ki, oranın tütyəsindən sürtdük, yaramız, ziyilimiz sağaldı, get sən də sürt, barmağın sağalsın. Amma mən heç vaxt buna inanmırdım. Fikirləşirdim ki, bu qədər

dərmanların sağaltmadığı yaranı pirin tütyəsi necə sağalda bilər?

Bir gün gəlin köçdüyüm evin qonşuluğunda yaşayan bir qadın mənə pul verib xahiş etdi ki, uşağım xəstədir, atan evinə gedəndə bu nəziri Çinarlı pirinə qoy, oradan mənə tütyə gətir.

Mən həmin nəziri mücövürçüyə verib, əhvalatı danışdım. O, nəziri alıb, pirin torpağından kağıza büküb, mənə verdi.

Həmin tütyəni evdə stolun üstünə qoymuşdum. Birdən necə oldusa, kağız cırılıb, torpaq stolun üstünə dağıldı. Sağ əlimlə torpağı sıyırıb başqa bir kağıza bükdüm və qonşuya verdim.

Sabahı gün hiss etdim ki, əlimi bir şeyə toxunduranda ziyilin ucu ağrımır. Əmin olmaq üçün şəhadət barmağımı yerə bərk-bərk sürtdüm, gördüm həqiqətən də ağrımır. İki gündən sonra barmağımdakı ziyil tamamilə yoxa çıxdı. O hadisədən sonra məndə pirə və onun tütyəsinə qarşı inam yarandı. Bəlkə də o tütyənin dağılması və mənim yaralı barmağımla ona toxunmağım bir qismət imiş ki, məndə inam yaransın.

## *Türbəni sökənlər peşman oldular*

Yuxarıda qeyd etdim ki, Ağbil pirində üç türbə olmuş, onlardan biri sovet dönəmində sökülmüşdür. Həmin hadisənin şahidi olanlar söhbət edirlər

ki, otuzuncu illərdə əsgərləri gətirib, günbəzin birini sökdürürlər və kərpiclərini başqa bir binanın tikintisi üçün maşına yükləyirlər. Ancaq nə qədər cəhd etsələr də, maşın yerindən tərpənmir. Sonda əlacsız qalıb, kərpici yerə boşaldırlar. Əsgərlərə əmr verən şəxs isə həmin yerdə infarkt keçirir və xərəkdə qayıdır.

Ağbil kəndinin yetmiş dörd yaşlı sakini, kitabxanaçı Şəfiyeva Sara Hüseyn qızı söhbət edir ki, mən uşaq olanda, dağa gedən və yaxud dağdan qayıdan çobanlar Ağbil pirində düşərgə salar, heyvanlardan bir neçəsini burada qurban kəsərdilər. Kənd camaatına elan edərlərmiş ki, hamı gəlib qurban payını aparsın. Çobanlar söhbət edirlərmiş ki, ata-babalarımızın vəsiyyətinə görə, sökülmüş türbənin yerində qotur xəstəliyinin şəfası var, biz heyvanlarımızı həmin türbənin ətrafına fırladanda və qurban kəsəndə həmin ili qotur olmurlar.

## CABBAR BABA

*Rəhman və Rəhim olan Allahın adı ilə*



Quba rayonunun Xınalıq kəndində dünyaya gələn böyük övliyalardan olan Cabbar

baba Həzrət Əbu Müslimin nəslindəndir. Əbu Müslimin əsl adı Abdurrahmandır. Əbu Müslim Həzrəti Peyğəmbərin hicrətindən üç yüz il sonra Azərbaycan və Dağıstana, Qirxlar baba və başqa səhabələrdən sonra İslam dinini yaymaq üçün on bir oğlu ilə birlikdə gəlmişdir. Deyilənlərə görə Nəsrəddin adlı oğlunu Xınalıq kəndinə, Camal adlı oğlunu da Qubaya göndərmişdir. Getdiyi hər yerdə bir məscid inşa etdirmişdir. O cümlədən Xınalıq kəndindəki Əba Müslim cümə məscidini də o tikdirmişdir.

Abdulcabbar baba da bu nəsildəndir. Onda hələ kiçik yaşlarından qəribə hallar zahir olurdu. Abdulcabbar baba ilk təhsilini dünyaya gəldiyi Xınalıq kəndindəki mədrəsədə almışdır. Bir müddət təfsir, fiqh, hədis və digər elimləri təhsil etdikdən sonra həmyaşıdı Əhməd əfəndi ilə birlikdə Qəbələ rayonunun Vəndam kəndində yaşayan Nəqşibəndi şeyxi Dərviş babanın müridi olmuşlar. Dərviş Baba Xalid Bağdadinin xəlifəsi olan Mövlanə Hacı İsmail Kürdəmirlinin xəlifəsidir. Azərbaycan təsəvvüf tarixində Şəkili Dərviş baba adı ilə məşhurdur, əsil adı Muhəmməd əfəndidir. Uzun zaman Dərviş babanın yanına-gəlib getmiş, söhbətlərində iştirak etmiş və feyzlər almışlar.

Abdulcabbar Babanın evində kiçik xəlvətxanası vardır. Oraya girərək ildə iki dəfə qırx gün insanlala görüşmədən ibadət və zikrlə məşğul olmuşdur. Həmin

xəlvətxana onun evində indi də mövcutdur, bu gün də cammat oranı ziyarət edir.



Məşhur Seyidqələm Baba Abdulcabbar Babanın nəvəsidir. Abdulcabbarın iki oğlu olub. Birinin adı Abdullah, digərinin adı Abdurrahman. Seyidqələm Baba Abdurrahmanın oğludur. Seyidqələm Baba hələ kiçik yaşlarından elmlə məşğul olmuş, Əhməd Əfəndidən dərs almışdır.

Seyiqələm Babanın həyətində arı səbətləri var imiş. Bir nəfər onun bal səbətini oğurlamaq istəmişdi. Balı alıb, kəndin işindən keçib gedir, bir xeyli uzaqlaşır. Bu zaman evində insanlarla söhbət edərək, onları irşad edən Seyidqələm Baba yanındakılardan birinə deyir ki, “Dur get, bayırda əlində səbət olan bir nəfər var.” Həmin adam gedib, onu övliyanın göndərdiyini bildirir. Oğru bir də baxır ki, sən demə heç yerə getməyib, damın üstündə təpik döyübmüş. Etdiyi işinə peşman olub, Seyidqələm Babanın əlindən tövbə edir. Adam bal səbətini qoyub getmək istəmişdir. Lakin Seyidqələm Baba balı ona hədiyyə vermişdir.



Seyidqələm babann oğlu Abdurrəhim baba-

dır. O da bir çox kəramətləri olan Allah dostu idi. Susay kəndindən Abdurrəhim babaya ot biçimi zamanı köməyə gələn iki nəfər yolda acdıqlarından bir- birinə deyirlər ki, “Nə olaydı ki, biz gedəndə Abdurrəhim baba bizə bal, yağ ilə çörək verərdi.” Kəndə gəlib Abdurrəhim babanın hüzuruna çatanda baba onlara: “Gəlin bal, yağla çörək yeyin, sonra ot biçməyə gedərsiz” - deyir. Onlar isə utandıqlarından yemək istəməyiblər. Abdurrəhim baba isə onlara: “Bəs yolda bir- birinizə baba bizə bal çörək versəydi yaxşı olardı demirdiniz?” – deyərək kəramətini zahir etmişdir.

Həyatlarında insanlara faydalı olduqları kimi, vəfatından sonra da dərdlərə dəvadırlar. Hər gün neçə-neçə övliyasevər onların şərif məzarlarını ziyarət edərək, niyyətlərinə çatırlar.

## BABADİLİM PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Babadilim piri adıyla tanınan günbəz Quba rayonunun Hapıt kəndində yerləşir. Günbəzin içərisində iki övliyanın qəbri vardır. Binanın divarının çöl tərəfində müxtəlif dövrlərdə ərəbcə yazılmış üç ədəd daş kitabə vardır. Azərbaycan Milli Elmlər Akademiyasının professoru Məşədixanım Nemətova burada tədqiqat apararkən belə qənaətə gəlmişdir ki,



divardakı daş kitabələr əvvəlcə kəndin başqa yerində olan zaviyə binalarının üzərində olmuş, hansı səbəbdənsə ora uçduğundan, həmin kitabələr sonradan bu binaya hörülmüşdür. Divardakı birinci kitabəni M. Nemətova aşağıdakı kimi tərcümə etmişdir:

*“Allahdan başqa Allah yoxdur. Məhəmməd Onun elçisidir. Bu mübarək zaviyə binası tikilmişdir.*



*Əzəmətli şeyxlərin şeyxi Şeyx Kamil və Şeyxzadə və Şeyx Mir Hacı və Şeyx Səid və Şeyx Cami və Şeyx Tahir və Şeyx Camal və Şeyx Rəhim və Şeyx Ağa, Mir Məhəmməd və Şeyx Səid və Şeyx Şirzad”.*

İkinci kitabə ərəbcədən aşağıdakı kimi tərcümə edilmişdir:

*“Allahdan başqa Allah yoxdur. Məhəmməd Allahın Peyğəmbəridir, Əli Allahın köməkçisidir. Bu binanı möhkəmlənmiş, qalibiyyətli, zəfərli şah Səfiəddinin (hakimiyyəti) dövrünün əvvəllərində Soltan Fərrux tikdirmişdir.”*

Üçüncü kitabənin isə tərcuməsi belədir:

*“Qarqiçay və Kükcə Badkuinin səyi və ustadlığı ilə min otuz səkkizinci il tarixdə (1623-1624)”*

Dördüncü kitabədə yazılıb:

*"Şeyx Arif Nurunun oğlu ibn Məhəmməd bağışlanmış, vahid Allaha inanan Fətəlixan... Allah onun hökümranlığını əbədiləşdirsin... ustadları Cəfər və şamaxılı Haşim".*

Yazılardan belə qənaətə gəlmək olur ki, burada X-XI əsrlərdə sufiliklə bağlı bir mərkəz olmuş, kitabələrdə adları çəkilən şeyxlər də həmin zaviyədə fəaliyyət göstərmişlər.

## *Kənd əhalisi övliyanın qəzəbinə gəlib*

Babadilim pirini ziyarət edərkən Hapıt kəndinin ağsaqqalları mənə pirlə bağlı maraqlı əhvalatlar danışdılar. Əhvalatlardan biri adını çəkmək istəmədiyim qonşu kəndin camaatına aiddir. Belə ki, hər il bu kəndin əhalisi üç illik bir cöngə alıb, Babadilim pirində qurban kəsirlər. Neçə əsrlərdir ki, davam edən bu ənənənin maraqlı bir tarixçəsi vardır. Həmin tarixçəni diqqətinizə çatdırmağı lazım bilirəm. Əhvalat belə olmuşdur:

Pirdə dəfn olunan övliyanın sağlığında onun üçillik bir cöngəsi itir. Övliya duyumla bilir ki, heyvanı həmin qonşu kənddən kimsə tutub. Kənd camaatına sifariş göndərir ki, heyvanı buraxsınlar. Amma camaat sözü bir yerə qoyaraq, yalandan and-aman edir ki, heyvan bizim kənddə tutulmayıb. Üçüncü gün Şeyx özü həmin kəndin məscidinə gələrək, ağsaqqallara deyir ki, bilirəm, heyvanım bu kənddə tutulub və siz

onu tutanı tanıyırsınız. Xahiş edirəm həmin adama deyin, heyvanı qaytarsın. Camaat yenidən and içir ki, köngə bu kənddə tutulmayıb. Övliya naəlac qalıb, üzünü kəndə sarı tutaraq: "Ay heyvan, sağsansa dirin gəlsin, kəsilmisənsə dərin gəlsin" – deyir. Belə dedikdə, Qüdrəti-İlahidən kəramət hasil olaraq, heyvanın dərisi kənddəki həyətlərin birindən diyirlənə-diyirlənə çıxaraq, gəlib camaatın qabağında dayanır. Bayaq and-aman edən adamlar bu möcüzəni görəndən sonra, utandıqlarından başlarını aşağı salırlar. Belə olduqda övliya üzünü onlara tutaraq: "Sizi görüm yeddi bölük olasınız və sözünüz bir yerə düz gəlməsin. Uşaqlarınızın beşiyindən ilan çıxsın" – deyərək, kənd əhlini qarğıyır.

Deyilənə görə həmin gündən kənd yeddi bölük olur və heç vaxt sözləri bir yerə düz gəlmir. Ən dəhşətlisi də odur ki, körpə uşaqların beşiyində ilan görünməyə başlayır. Bundan sonra camaat pul toplayaraq, üçillik bir köngə alırlar, Şeyxin həyətində qurban kəsərək, üzr istəyirlər. Həmçinin söz verirlər ki, beşiklərdə ilan görünməsin, hər il kənd camaatı bir baş üçillik köngə alaraq, burada qurban kəsəcəklər.

Bundan sonra uşaqların beşiyində ilan gözə dəymir. Camaat əhdinə əməl edərək, hər il qurbanı gətirib Babadilim pirində kəsirlər. Üstündən əsrlər keçməsinə baxmayaraq, hələ də bu ənənə davam edir.

Yeri gəlmişkən, bu əhvalat yadıma Quran-Kərimdə bəhs olunan Sleh Peyğəmbərin dəvəsinin kəsilməsi hadisəsini saldı:

***...“Ey camaatım! Allahın bu dəvəsi sizin üçün bir möcözədir. Qoyun Allahın torpağında otlasın, ona bir pislik etməyin, yoxsa şiddətli bir əzaba düçar olarsınız! Lakin onlar tutub kəsdilər...”.*** *Quran, “Hud” surəsi, 64-65.*

## SEYİD CƏLALƏDDİN

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Seyid Cəlaləddin  Siracəddin oğlu 1892-ci ildə Quba rayonunun ikinci Nügədi kəndində doğulub. Babası Hacı Musa kəramətli seyid olmaqla, XIX əsrdə üç dəfə Həcc ziyarətində olub. Sonuncu dəfə gedəndə əcdadlarının uyuduğu bu müqəddəs torpaqlarda ölməyi arzulayıb, Rəbbim niyyətini qəbul edib. Qəbri-şərifi Məkkədəki Fatimə vadisindədir. Yurdunda Pirbaba və Hacı Siracəddin adında övladları qaldı.



Hacı Siracəddin kəraməti və səxavəti ilə məşhur olan övliyalardan idi. Onun 1904-cü ildə Nügədidə tikdirdiyi məscid bu gün də fəaliyyət göstərməkdədir.

1917-ci ildə ahıl yaşlarında dünyasını dəyişən Hacı Siracəddinin yurdunda Cəlaləddin, Kəmaləddin, və Sədi adlı oğulları, Sədyət adlı qızı qaldı.

Seyid Cəlaləddin ilk təhsilini doğulduğu kənddə alıb. Daha sonra Səmərqənddə və İstanbulda Ali Ruhani Məktəb bitirib. O, bu elm ocaqlarında şəriət elmi ilə yanaşı, riyaziyyat, fizika, astronomiya, tibb, kimya, biologiya elmlərinə də mükəmməl yiyələnmişdi. Odur ki, 1919-cu ildən Qubanın Rustov kənd məktəbində pedoqoji fəaliyyətə başlayıb. 1926-cı ildən isə II Nügədi kəndində müəllimlik fəaliyyətini davam etdirib. 1939-da pedoqoji qiyabi məktəbi bitirən Cəlaləddin müəllim 1957-ci ilə qədər pedoqoji fəaliyyətlə məşğul olub. Bu müddətdə uğurlu fəaliyyətinə görə orden və medallarla təltif edilib.

### *Əməkdar artistin ağzı niyə əyilmişdi*

Seyid Cəlaləddin Quba bölgəsində həm müəllim kimi, həm də səxavət və kəramət sahibi övliya kimi xalqın etimad və rəğbətini qazanmışdı.

Onun kəramətlərinə dair kəndin 76 yaşlı sakini Mürşidov Əhmədağa Mürşid oğlu maraqlı əhvalatlar danışdı. Oxucuların da marağına səbəb olacağını nəzərə alıb, həmin əhvalatlardan ikisini diqqətinizə çatdırıram:

- 1963-cü ilin yazında güclü seldən Qara çay daşaraq, kəndin bir hissəsini basmışdı. Aşağıdakı evlərin çoxusu suyun altında idi. Camaat Seyid Cəlaləddin Babadan xahiş etdi ki, selin dayanması üçün dua etsin. Baba çayın sahilinə gəlib, əsasına söykənərək, dua etməyə başladı. Duanı tamamlayıb, camaata dedi ki, qorxmayın, bu saat sel çəkiləcək. Həqiqətən də çox keçmədən su çəkilərək, əvvəlki vəziyyətini aldı.



Dördüncü sinifdə oxuyurduq – deyə, Əhmədağa müəllim söhbətini davam etdirir – indi Respubilkanın Əmakdar Artisti olan Məcnun Hacıbəyov da bizimlə bir sinifdə oxuyurdu. Tənəffüs vaxtı məktəbin eyvanında müəllimlərdən biri ilə söhbət edirdik. Söhbətin mövzusu Allahın varlığı idi. Bu vaxt hündür eyvandan sallançan Məcnun diskussiyaya qoşularaq, dedi ki, Allah yoxdur, varsa niyə mənə heç nə eləmir? Elə belə demişdi ki, əli eyvanın qırağından çıxdı və başı aşağı yerə dəydi. Yaxınlaşıb gördük çənəsi çıxıb, ağzı əyilib.

Atası Salam kişi Məcnunu Seyid Cəlaləddinin ziyarətinə apardı. Övliya uşağın sifətinə əlini çəkən kimi çənəsi yerinə qayıtdı və ağzı düzəldi.

# ALTMIŞ ALTI ÖVLİYA

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Altmiş altı övliya adı ilə tanınan müqəddəs ziyarətgah Quba rayonunun Pir Vahid kəndində yerləşir. Qəbir daşlarındakı yazılardan aydın olur ki, orta əsrlərdə burada sufiliyin Xəlvətiyyə qoluna mənsub şeyxlər fəaliyyət göstərmiş, onlar öz həyatlarını İslam dininin yayılmasına həsr etdiklərindən, övliyalıq məqamına yüksəlmişlər. Odur ki, yerli əhali onların şərif məzarlarını zaman-zaman ziyarət edərək, ruhlarına dualar oxuyurlar.

Məzarlıdakı 66 övliyadan biri olan Şeyx Oqtayın başdaşında yazılıb:

*"Möcüzələr yaradan Əlini çağır. Sən onda bəlalardan xilaskarını taparsan. Sənin vasitəçiliyinlə bütün kədər və qüssələr keçib gedər Ya Əli! Ya Əli! Ya Əli!*

*Ya Allah! Sənin itaət etməyən qulun günahlarını boynuna alaraq, Sənin qarşında dayanmışdır. Səni çağırır. Əgər bağışlasan Sən buna qadirsən, əyər rədd etsən - Səndən başqa bağışlayan ki yoxdur. Ya Allah!*

*Məhəmməd Mustafa, Allahın ona salamı olsun.*

*Bu qəbir Şeyx Aslanın oğlu Şeyx Oqtayındır.*

*1047 hicri = 1637/38 miladi"*

Məzarlıqdakı müqəddəs qəbirlərdən biri Pir Vahidin nəvəsi, Şeyx Məhəmmədin oğlu Şeyx Səfinindir. Onun məzar daşındakı yazı Quranın ikinci surəsinin 256-cı ayəsi ilə başlayır:



*"Dində məcburiyyət yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu (Şeytanı) inkar edib Allaha iman gətirərsə, o, artıq ən möhkəm bir ipdən yapışmış olur. Allah eşidəndir, biləndir!"*

*"Dünya bir saatlıqdır, onu itaətlə keçirməyə çalışın.*

*Şeyx Səfi b. Şeyx Məhəmməd b. Pir Vahid".*

*1054 hicri = 1644/45*

Başdaşında bir kuplet də şeir həkk olunmuşdur:

*Bir cavan nazəninin məskənidir bu məzar,*
*Eyləmiş nazik tənin xakilə yeksən ruzigar.*
*Arzum budur duayi xeyir qılmış ola,*
*Hər kim bura etsə güzar.*

Pir Vahid qəbiristanlığındakı 66 övliyadan daha birinin başdaşında yazılıb:

*"Bu qəbir rəhmətlik Maşallahın oğlu, rəhmətlik, bağışlanmış Əhmədindir".*

*1216 hicri = 1801/02*

Yazıdakı *bağışlanmış* sözündən məlum olur ki, qəbirdə dəfn olunan övliyadır.

Ziyarətgahdakı digər bir şərif məzarın başdaşında yazılıb:

*"Bu qazi Məhəmmədin qəbridir".*

*1217 hicri = 1802/03*

Altmış altı övliya ziyarətgahında olarkən bu övliyaların kəramətindən faydalanan bir çox ziyarətçilərlə söhbət etdim. Bu söhbətlərdən bəzilərini diqqətinizə çatdırıram.

*Quliyeva Xatirə Becan qızı – Quba rayonu, II Nügədi kənd sakini:*

- Keçən il infakt keçirmişdim, vəziyyətim get-gedə ağırlaşırdı. Xahiş etdim ki, məni bu övliyaların ziyarətinə gətirsinlər. Buranı ziyarət edib, qayıdandan sonra yüngülləşməyə başladım. Üstündən bir il ötüb, yenə özümdə narahatlıq hiss edib, ziyarətə gəldim. İnanıram ki, qyıdandan sonra yenə də yüngülləşəcəm.

Ziyarətgahda tanış olduğum ailələrdən biri də Birinci Nügədi kənd sakinləri Mirzəyev Çingiz Ağabala oğlu və onun həyat yoldaşıdır. Bu ailə

də pirin daimi ziyarətçilərindəndir. Çingizin həyat yoldaşı söhbət edir ki, evləndiklərindən beş il sonra övladları olub. Bu müddətdə bura tez-tez ziyarətə gəlib, dualar ediblər. Nəhayət arzuları hasil olub:

- Buradakı övliyalara çox böyük inamımız var. Odur ki, ailəlikcə tez-tez ziyarətə gəlirik. Yaşadığımız Nügədi kəndinin beşinci məhləsində *övlad piri* deyilən bir ocaq var. Orada da övladla bağlı niyyətlər hasil olur. Həmişə istəyirdim ki, ora gedib, övladla bağlı niyyət tutum. Amma nədənsə həmişə bunu sonraya saxlayırdım. Bir gün yuxuda gördüm həmin pirdəyəm, tütyə içirəm, tütyənin torpağı ağzıma, boğazıma, sinəmə yapışıb. Bu vaxt yuxudan ayıldım, amma, ayıq olmağıma baxmayaraq, ağzımda, boğaz və sinəmdə çoxlu torpaq olduğunu hiss edirdim. Biraz udqunandan, su içəndən sonra ağzım təmizləndi. Səhər durub, qonşuluğumuzdakı həmin pirə getdim. Oranın xidmətçisi Həzrə xala mənə tütyə içirtdi. Bir müddətdən sonra hamilə qaldım və oğlum Murad dünyaya gəldi (indi onun 14 yaşı var).  Sonrakı illərdə daha iki övladım dünyaya gəldi.

# XƏLƏNC PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Xələnc piri adı ilə tanınan müqəddəs ziyarətgah Quba rayonunun Birinci Nügədi kəndində yerləşir. Bura ən çox yel xəstəliyindən əziyyət çəkənlər gəldiyindən, el arasında bura ***yel piri** də* deyilir. Buradakı günbəzdə üç övliyanın müqəddəs məzarı vardır. Ziyarətçilər onların ruhlarına dualar oxuyub, Allahdan bu övliyaların xatirinə şəfa diləyirlər.



Pirdə olarkən rastlaşdığım adamlar burada insanların şəfa tapmasına dair saysız-hesabsız faktlar sadaladılar. Onlardan bəzilərini diqqətinizə çatdırmağı lazım bilirəm.

*Bayramov Əhməd Əli oğlu – Quba rayonu, I Nügədi sakini:*

- Qardaşım Əmrahın 5-6 il bundan qabaq ayaqları qıc olmuşdu, yeriyə bilmirdi. Müalicələrin də effekti yox idi. Üç dəfə yel pirinə ziyarətə gətirdik, iki dəfəsini qucağımızda gətirdik, üçüncü ziyarətə qoltuq

ağacı ilə axsaya-axsaya gəlmişdi, qayıdanda qoltuq ağacını tullayıb, özü sərbəst yeriyə-yeriyə getdi.

*Əsədullayeva Nazilə Şeydabət qızı – I Nügədi sakini, pirin mücövürçüsü:*

- Bir neçə il bundan qabaq bura bir hüquqşünas oğlan gəlmişdi. Dedi ki, Moskvadan xəstəxanadan müalicəmi yarımçıq qoyub gəlmişəm. Sağ ayağı və qıçı şişmişdi, ayaqqabı geyinməmişdi. Şişən qıçının qıpqırmızı olması qızıl yelin əlaməti idi. Həm də çoxlu yaralar əmələ gəlmişdi. Moskva xəstəxanasında onu əməliyyat etmək istəyiblər, amma sağalmasına qarantiya verməyiblər. Tanışlarından biri ona bu pirin kəramətlərindən danışıb, ziyarət etməyi məsləhət görüb. Ziyarət edib, getdi Rusiyaya. Növbəti il yenidən ziyarətə gəlmişdi. Tanışlıq verdi ki, həmin adamam, ziyarət edib gedəndən sonra sağaldım.

Qonşu Talıblı kəndindən də Rusiyanın Perm vilayətində yaşayan bir ailə uşaqlarını bura qucaqlarında gətirmişdilər – deyə, Nazilə xanım söhbətini davam etdirir: - Qorxub, ayaqları tutulmuşdu. İki dəfə qucaqlarında gətirdilər, üçüncüdə uşaq özü yeriyə-yeriyə getdi.

# QƏFLƏ PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Quba əhalisinin, eləcə də bölgədə yaşayanların üz tutduqları ziyarətgahlardan biri də Qəflə piri adıyla tanınan müqəddəs məkandır. Bu pir Qusar rayonunun Yeni Həyat kəndində, şosse yolunun kənarında yerləşir. Bura əsasən qorxu, həyacan nəticəsində problem yaranan insanlar üz tuturlar. Pirin adı da buradan götürülmüşdür. Pirdə mücövürçülük edən Mirzəliyev Mehtər Əmralı oğlu və Mirzəliyeva Dilbər Paşa qızı ər arvaddılar. Onlar burada tanış olub, evləniblər. Bu evlənmənin çox ibrətamiz və maraqlı məqamları vardır. Bunu nəzərə alıb, onların həyat hekayəsini oxuculara təqdim etməyi lazım bilirəm.



*Əvvəlcə Dilbər xanımı dinləyək:*

- 20 yaşımda məni Türkmənistana ərə verdilər. Ora gedəndən sonra bidim ki, ərim qumarbaz və içki düşkünüdür. Bütün günü məni pambıq tarlasında işlədir, qazandığım pulu əlimdən alaraq, ya arağa, ya da qumara verirdi. Baldızım mənim halıma acıyırdı.

Dedi bu səndən qabaqkı arvadını qumarda uduzub, bir gün səni də uduzacaq, başına çarə qıl.

Mən evdən qaçıb, dəniz vağzalına gəldim və gəmiyə minib, Azərbaycana gəldim. Gələndən sonra məndə sudurğa yarandı. Tez-tez özümdən gedirdim. Məni aparmaq üçün Türkmənistandan arxamca gəldilər. Lakin tez-tez sudurğa keçirdiyimdən, atam məni vermədi.

Sonralar mən bu xəstəlikdən xilas olmaq üçün çox müalicələr elədim, heç bir nəticəsi olmadı. Üç il əziyyət çəkəndən sonra Qəflə pirinə gəldim. Bir müddət ziyarət günlərində buranı ziyarət edib, pirdə yatdım. Hər ziyarətdən sonra özümdə yüngüllük hiss edirdim. Nəhayət tamam sağaldım. Pirə xidmət edən Mehtər adlı oğlan mənə elçi göndərdi və biz evləndik. İndi bizim xoşbəxt ailəmiz, övladlarımız var. Hər ikimiz bu ziyarətgahda xidmət edirik. Nə qədər xidmət etsək, bu övliyanın borcundan çıxa bilmərik.

Dilbər xanımın həyat yoldaşı, Qusar rayonunun Lanqu kənd sakini Mirzəliyev Mehtər Əmralı oğlunun dediklərindən:

- 1972 təvəllüdəm. Rusiyanın Həştərxan şəhərində işləyərkən, avtomobil qəzasında sağ qıçımı itirdim və evə qayıtdım. Burada mənə çox  çətin oldu. İşləyə bilmədiyimdən maddi çətinlik çəkirdim, ailə qura bilmirdim. Bir gün gəldim Qəflə pirinin mücövürçüsü Hacı Rövbərin yanına, xahiş etdim ki, icazə versin pirdə xidmətçi işləyim. O da icazə verdi. Mən burada

təmizlik işlərinə baxırdım. Yorulanda hərdən pirdə yatırdım. Maraqlıdır ki, gözümü yuman kimi, uşaqlıqda mənimlə bir sinifdə oxuyan Dilbər adlı qız gəlib dururdu gözümün qabağında. Fikirləşirdim ki, görəsən o haradadır, nə işlə məşğuldur, ailə qurubmu? Onu da deyim ki, heç əvvəllər o qız mənim yadıma düşməzdi, indi də başqa yerdə olanda yadıma düşmürdü, ancaq pirdə uzanankimi, gəlib gözümün qabağında dururdu. Bir müddət belə davam elədi, sonra bir gün ziyarətə bir ailə gəldi, xəstə qızlarını gətirmişdilər. Fikir verdim ki, həmin sinif yoldaşım Dilbərdi; xəstə halda idi, dedilər tez-tez özündən gedir. Amma bir müddət gəlib-gedəndən sonra onda sağalma hiss olunurdu. Mən atama dedim ki, o qızla evlənmək istəyirəm. Atam dedi sənin bir ayağın yoxdur, o da ağır xəstədir, siz necə dolanacaqsınız? Amma, mənim əl çəkmədiyimi görüb, elçi getməyə razı oldu. İndi də Dilbərin atasıgil razı olmadılar ki, qız xəstədir, tez-tez sudurğa keçirir, siz onu saxlamayacaqsınız. Amma mənim əl çəkmədiyimi, qızın da mənə meyli olduğunu görüb, evlənməyimizə razılıq verdilər. Evlənəndən sonra Dilbərin səhhətində heç bir problem olmadı. Hər ikimiz ziyarətgaha xidmət edirik. İki övladımız var, xoşbəxtik. Allah bu pirə üz tutanların hamısına xoşbəxtlik nəsib etsin.

Mehtər və onun həyat yoldaşı Dilbər xanım söhbət etdikcə, yadıma Mövlana Cəlaləddin Rumi ilə kar-

vansarada sakin olan Tavusi Gənci arasında baş verən bir əhvalat döşdü. Əhvalat belə olmuşdur:

*Mövlana, Vəzir Ziyaəddinin karvansarasına getmişdi. O karvansarada "Tavusi Gənci" adında bir qadın var idi. Mövlana bu qadının otağının qarşısında oturdu.*

*Bu qadının adı həmişə günahlarla xatırlanırdı.*

*Ancaq Mövlananı otağının qarşısında gördükdə inanmadı. Dərhal gedib Mövlananı öz otağına dəvət etdi.*

*Mövlana böyük hörmətlə bu dəvəti qəbul edib, Tavusi Gəncinin otağına girdi. Orada namaz qılmaq və dua etməklə məşğul oldu. Bu qadın üçün də dua etdi.*

*Çıxıb gedərkən də sarığının ucundan bir parça kəsib ona verdi.*

*Həmin gün Əmir Şərafəddin də o karvansaraya gəldi. Tavusi Gəncini görən kimi ona aşiq oldu. Habuki Əmir bu qadını əvvəllər də tanıyırdı. Amma ilk dəfə idi onu gözəl görüb sevdi və ona evlənməyi təklif etdi.*

*Evləndikləri gecə Əmir Şərafəddin Tavusi Gəncidən soruşdu:*

*- Səni "zamanın Rəbiəsi"*[1] *kimi görməyimin səbəbi nədir?*

*Tavusi Gənci başındakı sarıq parçasını göstərərək belə dedi:*

*- Gözəlliyim mndən deyildir. Məni daxilim və xaricimlə dəyişdirən Mövlananın kərəm əlidir.*

[1] Rəbiə - VII əsrdə yaşamış xanım övliyadır.

# SEYİD KƏRİM, SEYİD ŞƏMSƏDDİN MƏHƏMMƏD ŞABRANİ PİRİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Quba və ətraf rayonların əhalisinin ehtiramla yad etdikləri müqəddəs yerlərdən biri də Gədik kəndində yerləşən və Şah Abbas tərəfindən tikilən türbədir. Türbədə üç qəbir vardır. Qəbirlərdən biri Soltan Seyid Kərimə, ikincisi, oğlu Seyid Şəmsəddin Məhəmmədə, üçüncüsü isə, həyat yoldaşına məxsusdur.



Seyidlərin qəbri üzərindəki günbəzin Şah Abbas tərəfindən tikilməsinin maraqlı bir tarixçəsi vardır.

Rəvayətə görə Şah Abbas 1607 miladi ilində Dərbəndə doğru yürüş edərkən, Vəlvələ çayının sağ sahilində Çəpərxana adlanan ərazidə düşərgə salır. Şah libasını dəyişərək, bir neşə əsgərlə ova çıxır ki, qoşunu yedizdirmək üçün heyvan vursun. Bir yerdə Quran oxuyan pirani qocaya rast gəlir. Şah Abbas salam verir. Kişi Quranı tamamlayandan sonra şahın adıyla salamı alır və deyir ki,

Quran şahdan irəli olduğundan, onu qurtarmamış sizin salamınızı ala bilməzdim. Yanındakı bələdçi Şaha bildirir ki, bu pirani şəxs Seyid Şəmsəddin Məhəmməddir. Şah Abbas ona deyir ki, ordumuzun azuqəsi tükənib, əgər həqiqi seyidsənsə bir kəramət göstər, Allahdan bizə ruzi gəlsin. Bu vaxt Heykallı dağından iki ceyran onlara tərəf gəlir. Seyid Şaha deyir ki, əsgərlərinə tapşır, onlara güllə atmasınlar, yanımıza gələcəklər. Ceyranlar gəlib çatanda seyid ocaqdan iki dənə kösöv götürüb, yerə çalır və ceyranları bu mıxçalalara bağlayır. Daha sonra ceyranları sağaraq, südlüaş bişirir və şahın bütün əsgərlərini qonaq edir. Qüdrəti-İlahidən verilən bərəkətlə bir qazan yemək bütün əsgərləri doyuzdurur.

Şah Abbas seyiddən xahiş edir ki, bu yürüşdə qələbə çalması üçün ona xeyir-dua versin. Seyid Şəmsəddin Məhəmməd yerə çaldığı kösövlərin dibində dəstamaz alıb, namaz qılaraq, onların qələbə çalması üçün dua edir. Namazını qurtaranda görürlər ki, kösövlər göyərib.

Şah Abbas Dağıstanı fəth edir və orada məscid tikdirir. Qayıdarkən gördüyü kəramətlərin müqabilində yenidən Seyid Şəmsəddin Məhəmmədi ziyarət etmək istəyir. Lakin, onun dünyasını dəyişdiyini eşidərək, məzarını ziyarət edir və bu şərif məzar üzərində həmin bu günbəzi tikdirir. Bundan əlavə seyidin nəslinə 50 desyatin torpaq bağışlayır. Daha sonra isə, fərman imzalayaraq, onları bütün vergilərdən azad edir:

# HACI MƏHƏMMƏD ÇƏLƏBİ ƏFƏNDİ

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Azərbaycanda insanlığa xidmət etmiş dahi şəxslərdən biri də Qubanın Alıc kəndində yaşamış Hacı Məhəmməd Çələbi Əfəndidir.

Zəmanənin çox böyük alimlərindən olmuş Hacı Məhəmməd Çələbi Əfəndi, dərin zəkası və çox geniş dini elmi ilə öz dövrünün alimlərinin rəğbətini qazanmışdır. Onun zamanında Alıc kəndi sanki böyük bir şəhər qədər elm mərkəzinə çevrilmişdir. Elm, hikmət təşnəsi olan insanlar axın-axın Hacı Məhəmməd Çələbi Əfəndinin xidmətinə gəlir və elm şərbətini o Həzrətin əlindən doya-doya içirdilər. Onun kimi qardaşları Hacı Mahmud Çələbi və Hacı Əhməd Çələbi də dini elmləri dərindən bilən din xadimləri olmuşlar. Qeyd etmək istərdim ki, din xadimi dedikdə zəmanəmizin mollalarını düşünərək, dəfn mərasimləri idarə edən, dini elmlərdən xəbəri olmayan, kütləni az bilgi ilə idarə etməyə bəs edəcək qədər savadı olan müasir din xadimlərini düşünməyək. Hacı Məhəmməd Çələbi Əfəndi dini elmlərdən təfsir, əqaid, fiqh elmləri ilə yanaşı, ərəb dilinin qrammatikasından bəhs edən nəhb və sərf elmlərini, astronomiya, hüquq, tarix, ədəbiyyat, riyaziyyat və s. elmləri də mükəmməl bilmiş-

dir. Onun kimi qardaşları da bu elmləri bilmiş, xalqın maariflənməsində yaxından iştirak etmişlər. Qardaşı Hacı Əhməd Çələbi Əfəndinin oğlu Qazi İsa Əfəndi uzun illər Qubanın qazısı işləmişdir. Bu vəzifə indiki prokror, məhkəmə, VAAQ, bələdiyyə kimi vəzifələri özündə cəm edirdi.

Azərbaycan dilindən başqa bir neçə dili mükəmməl bilən Hacı Çələbi Əfəndi, ətraf bölgələrdən, İslam coğrafiyasının uzaq yerlərindən gələn müsəlmanlarda dərin təssürat yaradırdı.

Bu elmi biliklərə malik olmuş Hacı Çələbi Əfəndi öz elminin meyvəsi olaraq “Tədvinul- Əlici” kitabını yazmışdır. A.A.Bakıxanovun müəllifi olduğu “Gülüstani- İrəm” əsərində qeyd etdiyinə görə, bu əsər zəmanə alimlərinin rəğbətini qazanmışdır. Ağsaqqalların dediyinə görə, bu kitab islam hüquqlarından bəhs etməklə yanaşı, bütün ümməti narahat edən təriqət qarşıdurmasını çözəcək məsələlərdən yazmışdır. Lakin, “parçala və hökm et” siyasətini yürüdərək, sünnilər üçün “Ömər” məktəbi, şiyələr üçün “Əli” məktəbi açan çar Rusiyası bu kitabın oxunması və tədrisini qadağan etmişdir. Sonradan isə bu kitab ümumiyyətlə yoxa çıxmışdır. Burada qeyd etməyi özümə borc bilirəm ki, Quba şəhər Cümə məscidinin tikilməsində Çələbi Əfəndinin böyük xidməti olmuşdur, Bu məsciddə 1900- cü illərdə 30 ildən artıq imamlıq etmiş dahi insan, böyük din xadimi, gözəl ziyalı, xalq arasında “İmam Əfəndi” adı ilə şöhrət tapmış Əbdür-

rəhim Əfəndi, Hacı Çələbi Əfəndinin nəslindəndir. Onun nəvəsi molla Ələddin də uzun illər xalqın xidmətində olmuşdur.

Hacı Çələbi Əfəndi yeddi dəfə Həcc ziyarətində olmuşdur. Ən maraqlısı isə budur ki, o bu ziyarətin yeddisinə də bir atla gedib-gəlmişdir. Rəvayətə görə səfər əsnasında o, bu ata minməmiş, ancaq yol ləvazimatını yükləmişdir.

Deyilənlərə görə Əfəndi altıncı dəfə ziyarətə gedəndə atını, xəstə və ya başqa səbəbdən özü ilə götürməmişdir. Zəvvar yoldaşları ilə Qubadan bir qədər uzaqlaşmış Əfəndi, yol boyu atı götürə bilməməsinin mənəvi istirabından danışırmış. Allah-təalanın nurlarına qarşı qabiliyyətini itirmiş insanlardan fərqli olaraq, at da bu Həcc ayrılığına dözə bilməmişdir. Əfəndi və yanındakılar görmüşlər ki, bir at tozu dumana qataraq onlara sarı gəlir. Bu, Əfəndinin atı idi. O, Hacı Çələbi Əfəndinin qabağına gələrək, dizlərini yerə atıb, gözlərindən yaşlar tökərək, üzünü və göz yaşlarını Əfəndinin ayaqlarına sürtmüşdür. Bu hal həm Əfəndini, həm də yanındakıları ağlatmışdır.

Yenə rəvayət olunur ki, Hacı Çələbi Əfəndi ölümünün yaxınlaşdığını dərk edərək, bütün əzizlərini ziyarət etmiş və son olaraq qızının evinə gəlmişdir. Bütün gecəni ibadətlə məşqul olan Əfəndi, sübh namazına yaxın, namaz üstdə vəfat etmişdir. Bu ərəfədə həyətə çıxmış onun kürəkəni, Hacının atının da

həyətdə öldüyünü görmüşdür. Yeddi dəfə Həccə getmiş bu atı xalq, insan kimi yuyub, kəfənləyib, Alıc kənd qəbirstanlığının kənarında dəfn etmişlər. Sonradan onun qəbrinin yanından ata bənzər qoz ağacı çıxmıdır. Hazırda bu yerə "*At piri*" deyilir.

### *Naxırçı Əhməd*

Deyilənlərə görə Hacı Çələbi Əfəndi beşinci dəfə Həcc ziyarətindən qayıdanda özü ilə Əhməd adında kimsəsiz bir uşaq gətirir. Bu uşağa iş olaraq naxırçılıq tapşırılır. Dürüstlüyü, mənəvi paklığı ilə Çələbi Əfəndinin diqqətini cəlb edən Əhməd, camaat tərəfindən sadəcə naxırçı Əhməd kimi tanınırdı. Əhməd isə tamam başqa birisi idi.

Hacı Çələbi Əfəndi növbəti Hac ziyarətində Kəbədə namaz qılarkən, camaatın içində Əhmədi görür. Lakin, onu gözdən itirir. Səhərisi gün yenə də onu görür, lap yanına gedərək, arxasınca namaz qılır. Namazdan sonra onun paltarından tutaraq, bu qəribəlikləri qısa olaraq belə soruşur: "Əhməd bəs naxırı kimə tapşırmısan?" Əhməd də qolunu yuxarı qaldıraraq, qoltuğunun altından sanki bir televiziya seyr edərcəsinə Alıcda məgəl yerində yatmış malları göstərir. Bununla da onun sıradan bir insan olmayıb, Allah-təalanın sevdiyi qulu olduğu məlum olur.

Hacı Çələbi Əfəndi Həcc ziyarətindən qayıtdıqda, kənddən ta dənizə kimi xalq, yol boyu

xalçalar döşəyərək, onun qarşısına çıxmışlar. Hacı isə, ziyarətinə gəlmiş insanlara onu yox, naxırçı Əhmədi ziyarət etmələrini tövsiyə etmiş və demişdir: "Məni deyil, Əhmədi ziyarət edin. Mən Həccə ildə bir dəfə gedirəm, o isə hər gün gedir. Onun dərəcəsi mənimkindən üstündür."

Hazırda naxırçı Əhmədin məqamı xalq tərəfindən ziyarət edilməkdədir. Mala-qaraya xəstəlik gələndə bu ziyarətgahda Qurani Kərim oxudulur, türbətindən heyvanlara verilir.

Hacı Çələbi Əfəndi 1808-ci ilda vəfat etmişdir. "Gülüstani- İrəm" kitabında yazıldığına görə o zaman rus qoşunları ilə Şirvanlı Mustafa xan, Quba xanlığı ilə müharibə edirmiş. Vəsiyyətinə görə Hacını Quba qəbirstanlığında "Sultan Baba Rüstəm" ziyarətgahında dəfn etmək lazım idi. Quba mahalının bütün üləmaları bir yerə yığışaraq, Hacının tabutuna ağ bayraq vuraraq, Alıcdan, xalqın çiynində Qubaya gətiriblər. Bütün ətraf kəndlərdən insanlar axın-axın dəfn mərasiminə qoşulmuşlar. Görünməmiş bir izdiham yaranmışdır. Müharibə edən hər iki tərəf bu böyük şəxsiyyətin cənazəsinə hörmət edərək, müharibəni saxlayıb, bir yerdə meyit namazına durmuşlar. Deyilənə görə bu namazda minlərlə insan olmuşdur. Hacını "Sultan Baba Rüstəm" pirindən 10 metr şimalda dəfn etmişlər. Səhərisi gün müharibə Dəvədabanı adlanan təpədə davam etdirilmişdir. Hacının qardaşları Hacı Mahmud

Çələbi, Hacı Əhməd Çələbi, qardaşı oğlu qazı İsa Əfəndi, Əbdürrəhim Əfəndi də bu gürgahda dəfn edilmişdir.

Onun üç oğlu olmuşdur: Hacı Əsədulla Əfəndi, Seyfulla Əfəndi, İsmail Əfəndi.

Hacı Əsədulla Əfəndinin də üç oğlu olmuşdur, Nizaməddin Axund, Cəmaləddin Axund, Şərafəddin Axund.

Çələbi Əfəndinin nəsli bu gün də davam etməkdədir. Qubada din xadimi kimi tanınan Hacı Elnur Əfəndi də bu nəsli təmsil edir.

<

# ŞEYX CÜNEYD VƏ ŞEYX HEYDƏR

*Rəhman və Rəhim olan Allahın adı ilə*

Tarixdən bizə məlumdur ki, Şeyx Cüneyd İslam dinini dirçəltmək və Azərbaycanla Dağıstanı Rusiyanın təsir dairəsindən çıxarmaq üçün öz müridləri ilə birlikdə bölgəyə yürüş etdi. 1460 miladi ilində Samur çayının sahilində Şirvanşah I Xəlullahın qoşunları onu şəhid etdilər. Şeyx Cüneyd Həzrə kəndində dəfn edildi (hazırda onun qəbri bölgənin ən böyük ziyarətgahlarındandır). Onun qəbri üzərindəki türbə 1544/45 miladi ilində I Şah Təhmasibin hakimiyyəti dövründə onun vəziri Xacə Fəxrəddin Əhməd Fərəhani oğlu Xacə Ziyaəddin Nizamimülkün oğlu Ağa Məhəmməd tikdirmişdir. Bunu türbənin qapısı üzərinə hörülmüş daş kitabədən bilmək olur:



*“Bu mübarək və şərəfli imarəti yüksək sultan, kəramətli və ədalətli xaqan, fars və ərəb hökümdarlarının ağası* – Allah onun kölgəsini yerlərdən əskik etməsin – *qurunun və suyun qəhrəmanı, dini, dünyanı, xilafəti və səltənəti əzizləyən, Mustafaya (Peyğəmbərə) mənsub olan şəriət qaydalarını yayan, Murtəzəvi təriqətinin əsasını qoyan, minnət və ehsan edən, Allah tərəfindən müvəffəqiyyətlənmiş, ehtiyacsız Allaha təvəkkül edən, Sultan oğlu Sultan Əbülmüzəffər şah Təhmasib əl-Hüseyni Bahadurxanın* – Allah onun hökümranlığını və sultanlığını daimi etsin və hər iki dünyanı onun yaxşı işləri və ehsanı ilə feyzləndirsin, öz qəlbini, biliyini Allaha və bəşər aləminə həsr etməkliyi ilə həzrətlərindən seçsin (məxsus qılsın) – *hökümranlığı zamanında səadət və əzizlik sahiblərinin ən fəxrlisi, vahid Allahın rəhmətinə qovuşmuş Xacə Fəxrəddin Əhməd Fərahaninin* – yüksək Allah onun şükürlərini, səylərini və yaxşı işlərini qəbul etsin – *oğlu, qəbilələrin pənahgahı olan böyük vəzir həzrətləri, Allah rəhmətinə getmiş Ziyaəddin Nizamülmülk oğlu ən yüksək vəzirlərin vəziri, hökümdar və valilərin bəyənilmişi, xalqın bütün üzvlərinin tədbirçisi, xalqın yaxşı işlərinə zamin olan, əmmamə sahiblərinin xidmətkarı, kəramət sahiblərinin itaət olunmuşu, yaxşı işlər binalarının banisi, ehsan və səy edənlərin çalışqanı, vahid Allahın mehribanlığı ilə seçilmiş əzizlik və vəzirlik fələkinin günəşi Ağa*

*Məhəmməd, kəramət sahiblərinin sultanı, yetişmiş və bəyənilmişlərin rəhbəri, ariflərin rəisi, düz yolla gedənlərin yol göstərəni, təriqət məsləkində vahid yol seçmiş, həqiqət məmləkətlərinin sahibi, öz razılıqları ilə eyni məslək istəyənlərin müridi, kainatın sahibi, öz fazilliyi (biliyi) ilə dövlətli olan* ***Sultan Şeyx Cüneyd Səfəvinin*** – Allah onun qəbrini nurlandırsın, şəhid olduğu yeri haqq eləsin – *qəbri üzərində 951 ilin axırında tikilməsinə müvəffəq olmuşdur."*

951=1544/45.

Şeyx Cüneyd öz əqidəsi yolunda şəhid olduqdan sonra onun yolunu oğlu Şeyx Heydər davam etdirdi. Şeyx Heydəri dayısı Uzun Həsən tərbiyə etmiş, boya-başa çatdıqdan sonra şeyxliyə layiq görülmüşdür. Şeyx Heydər Azərbaycanın şimal bölgəsində dini təbliğ edərkən, şəhid oldu və Xızı rayonunun Tıxlı kəndindən 3-4 km şimali-şərq tərəfdə dəfn edildi. Qəbir üzərindəki türbənin farsca yazılmış kitabəsinin tərcüməsi aşağıdakı kimidir:



*"Bu böyük məzar Allah yolu ilə gedənin müqəddəs şəhidgahı, həqiqət yolçusunun qəbri, hikmətli Quran dininin həqiqət axtaran şeyxi****, Şeyx Sultan Cüneydin oğlu Şeyx Sultan Heydərindir".***

*"Şirvan, Ruman, İran müharibəsində öldürülmüşdür. (Məqbərə) o ildən min otuz birinci ilə kimi xarab vəziyyətdə idi. Etibarlı imam Əmir əl-möminin Əli ibn Əbu Talıb Şeyx Cüneydin oğlu Şeyx Heydərin başına gələn hadisənin doğruluğunu bilib, qəbrin parlaqlığı və möhkəmləndirilməsi üçün həqiqi nökəri Şah İsmayılın yanına (yuxusuna) gəlib buyurdu ki, uzun müddət bu bərəkətli, böyük qəbir Şirvan dağlarından bir dağın ortasında gizli qalıb".*

*"Fərman verdi ki, onu bu cəfa dolu quyudan və alçaqlıq zülmündən qurtarıb, aşkar edib, qəbir üzərində bina tiksinlər. Mərhəmətlə o Ali və yüksək cavanın dəfn olunduğu dağın ətəyini 50 zər (bir zər 107 sm-dir) eninə çapıb, dərinliyə getdilər. Qədim qəbrin yerini aşkara çıxarıb, ona təzim etdilər. Şah Səfi Bahadur xan əl-Hüseynin hakimiyyəti vaxtında bu qəbir üzərindəki bina yenidən təmir və bərpa olundu. Uzun müddət məlayikələr astanası olan bu dərgahda çoxları şəfa tapdı. Rəcəb ayı min qırx doqquzuncu il tarixdə".*

Kitabədə yazılanlardan görünür ki, Şah İsmayıl Xətainin atası olan Şeyx Heydərin qəbri uzun müddət gizli qalmış, sonralar Əli əleyhissəlam

İsmayılın yuxusuna girərək, atasının qəbrinin yerini ona agah etmişdir. Şah İsmayıl Şirvana yürüşləri zamanı qəbrin yerini axtarıb tapmış, üzərində türbə tikdirərək, orada Şıxlar kəndini saldırmış və məqbərəni müqəddəs ziyarətgah elan etmişdir. Əsrlər keçdikdən sonra kəndin əhalisi buradan köçsə də, hazırda dağın ətəyində həmin kəndin xarabalıqları qalmışdır.

<



# Quranda riyazi dəqiqlik

***"Biz bu Quranı vəhy etməklə sənə ən gözəl hekayəti danışırıQ. Hərçənd ki, sən əvvəlcə ondan əsla xəbərdar deyildin."*** *Quran, 12:3.*

# QURAN ALLAH TƏRƏFINDƏN DÜZÜLÜB

*Rəhman və Rəhim olan Allahın adı ilə*

***"Siz** (günah törötməkdə) **həddi aşan bir Qövmsünüz deyə,** (sizi başlı-başına buraxıb) **Quranı sizə təbliğ etməkdən vaz keçməliyikmi?!"** Quran, "Qızıl bəzəklər"surəsi, 5*

Fəxri-kainat Peyğəmbərimiz Məhəmməd əl-Mustafa (özünə və davamçılarına salam olsun) hədislərinin birində "*Mən elmin şəhəriyəmsə, Əli* (ruhuna salam olsun*) onun Qapısıdır*" – deyə buyurmuşdur. Mən də öz növbəmdə bu buyruğa əməl edərək, elm şəhərinə (dəryasına) QAPIDAN girməyə Qərar verdim. Odur ki, rəQəmlərdəki hikmətin seyrinə dalmaQ üçün Əli əleyhissalamdan bir hədisə nəzər salaQ:

*Bir yəhudi alimi həzrət Əlinin elmini yoxlamaQ üçün ondan soruşdu ki, «dünyada elə bir ədəd varmı ki, birdən ona Qədər bütün rəQəmlərə QalıQsız bölünsün?» Həzrət dedi: «Yeri vur onun Qatlarına, axtardığını tapacaQsan. Yəhudi alimi 360-ı vurdu yeddiyə, 2520 ədədini aldı. Qumun üstündəcə hesablama apardı, gördü birdən ona Qədər bütün rəQəmlərə QalıQsız bölünür. Alim Allahın və Onun vəlisinin elmi Qarşısında heyrət etdi və Onun Qüdrətinə boyun əyərək, oradaca Islamı Qəbul etdi.*

## Quranın surələri və ayələri Allahın iradəsi ilə düzülüb və xüsusi bir Qanunauyğunluğa tabedir

Bildiyimiz kimi, dördüncü səmavi kitab olan Qurani-kərim Məhəmməd əleyhissalama Həzrət Cəbrayıl vasitəsi ilə, vəhy yolu ilə nazil olmuş və Peyğəmbərin yanındakı katiblərin vasitəsi ilə dərilərin və daşların üzərinə həkk olunmuşdur. Peyğəmbərimizin vəfatından sonra isə Xəlifə Osmanın hakimiyyəti dövründə onun tapşırığı ilə bir Qrup alim və Quranı əzbər bilənlərin iştirakı ilə bu yazılar kitab halına salınmışdir. Bunu bəhanə edərək, müəyyən adamlar Quranın ayələrinin və surələrinin sayı, onların düzülüşü haQQında mübahisə açırlar. Guya kiminsə haQQında olan ayələr Qurandan çıxarılıb və yaxud Peyğəmbər özünə sərf edən sözləri bu kitaba salıb. Bəzi adamların fikrincə isə, bu müQəddəs kitabın sözləri (ayələri) Allah kəlamı olsa da, bunların düzülüşü (hansı ayənin harada yerləşməsi) insan beyninin məhsuludur. Mənim fikrimcə isə bu cür düşünənlər yanılırlar. Yəni ayələr Allaha məxsus olduğu kimi onların nömrələnməsi, hansı surədə yerləşməsi, eləcə də surələrin düzülüşü də tamamilə Allah-taalanın nəzarəti və iradəsi ilə baş tutmuşdur və xüsusi bir Qanunauyğunluğa tabedir. Bunu sübut etmək üçün ustadım Xalid Fərəcin (Neftçala rayonu) vəhylə Qəbul etdiyi və təbligi elə həmin vəhylə də bu sətirlərin müəllifinə həvalə edilən  üç riyazi dəlili–düsturu diQQətinizə çatdıracağam. Bu riyazi sübutlar Quranın nömrələnməsinin Allah tərəfindən olduğunu və bu müQəddəs kitab tərtib edilərkən (bu günədək) heç bir

kəlmənin dəyişilmədiyini bəşəriyyətə sübut etmək üçündür.

## *Birinci dəlil: Quranın 114 surədən ibarət olması təsadüfi deyil*

Quran özündən əvvəlki səmavi kitabları təsdiQ etməklə yanaşı, öz-özünü də riyazi yolla təsdiQ edir. Məsələn, Quranın 114 surədən ibarət olmasının hikmətinə nəzər salaQ: Kainatın **dörd** cəhətdən, təbiətin **dörd** fəsildən ibarət olmasını, həmçinin insanın **dörd** ünsürdən yaranmasını və bu müQəddəs kitabın **dördüncü** səmavi kitab olmasını nəzərə alıb, Quranın ilk **dörd** surəsindəki ayələri cəmləsək, (7+286+200+176) 669 ədədi alınar. Qeyd edim ki, bu dörd surə bəşəri dəyərləri mülayimliklə təblig etdiyindən, Quranda mülayimlik və yaxud bəşəri dəyərlər rəmzi sayılır.

Bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından bəhs edən surələr isə 9 rəQəmi ilə gəlir (9,19, 29, … 99, 109) və sayı 11 olan bu surələrdəki ayələri cəmləsək, 555 ədədi alınar. Bu ayələrə fikir versək, əsasən sərt ayələrdən ibarət olduğunu görərik. Elə isə bəşəri dəyərləri mülayimliklə təbliğ edən 669 ədədindən, sərtlik və cəza rəmzi olan 555 ədədini çıxsaQ, (669-555=114) alınan 114 ədədi Quranın surələrinin sayını göstərir. Düsturdan məlum olur ki, bu müQəddəs kitabın mahiyyəti bəşəri dəyərlərin təbliğindən və bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından ibarətdir.

***“HəQiQətən, Rəbbin insanların zülmünə baxmayaraQ, onlara Qarşı mərhəmət sahibidir. Və şübhəsiz ki,***

***Rəbbinin cəzası da şiddətlidir!”*** *Quran, “Göy gurultusu” surəsi, 6.*

## Ikinci dəlil: *“Ibrahim” surəsi niyə 14 ədədi ilə nömrələnib?*

Tovhidin əsasını Qoymuş və kitab verilmiş bütün peyğəmbərlərin babası Ibrahim Peyğəmbərin adına olan “Ibrahim” surəsi 14 ədədi ilə nömrələnib. Buradakı hikmətin seyrinə dalaQ. Belə ki, **“Rəhimli Allah”** surəsinin sıra nömrəsi olan 55 ədədi bu müQəddəs kitabda 41 dəfə keçir (cəmi Qırx bir surədə 55-ci ayə var). Eyni zamanda 41 ədədi Quranda 55 dəfə keçir (kitabın cəmi əlli beş surəsində 41-ci ayə var). Bunların fərQi isə 14 ədədinə bərabərdir:

**55 - 41=14**

Düsturdan məlum olur ki, “Ibrahim” surəsinin sıra nömrəsi olan 14 ədədinin hikməti məhz “ Rəhimli Allah” surəsinə bağlanır. Bu fakt həm də Ibrahim əleyhissalamla, Allah-təala arasında olan əlaQənin riyazi sübutudur.

Bu düstur müQəddəs kitabın nömrələnməsində olan Qanunauyğunluğu bir daha təsdiQ edir. Həmçinin bu Qanunauyğunluğun insan beyninin məhsulu olmadığı aydın görünür.

**“*And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır.*”** *Quran, “Məryəm” surəsi, 94.*

## Üçüncü dəlil: *“Məhəmməd” surəsinin 47 rəQəmi ilə nömrələnməsinin sirri nədir?*

İbrahim Peygəmbərdə olduğu kimi, fəxri-kainat Peyğəmbərimizin də adına olan surənin **47** ədədi ilə nömrələnməsinin sirri yenə də "**Rəhimli Allah**" surəsində açılır. Belə ki, sözü gedən surə ("**Rəhimli Allah**") 78 ayədən ibarətdir. Bu ayələrin otuz birində eyni ayə təkrar olunur: "**Belə olduQda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz**?!" Bunu əsas götürüb, ayələrin ümumi sayı olan **78** ədədindən təkrar olunan **31** ədədini çıxsaQ (**78-31=47**), alınan **47** ədədi **"Məhəmməd"** surəsinin də hikmətinin **"Rəhimli Allah"** surəsində gizləndiyini göstərir. (oxucuları yormamaQ üçün bu düsturdakı digər hikmətləri açıQlamıram)

Rəbbim tərəfindən Xalid Fərəc vasitəsi ilə çatdırılan bu üç dəlil – üç riyazi düstur Quranın surələrinin və ayələrinin nömrələnməsi barədə mübahisələrə son QoyacaQ Qədər yetərli olsa da, hələ dəlillərin bir hissəsidir. Bu üç dəlil həm də onu sübut edir ki, Quranın 114 surədən, 6236 (altı min iki yüz otuz altı) ayədən ibarət olması heç bir şübhə doğurmur:

"**Biz hər şeyi sayıb yazmışıQ" (**78:29)

## *Dialektikanın Qanunları Allahın varlığını təsdiQ edir*

Quran bütün kainatı özündə əks etdirən səmavi kitabdır. Kainat isə kimyəvi elementlərin birləşməsindən yarandığından, bu müQəddəs kitabda surələrin düzülüşü ilə, elementlərin dövri sistemdəki düzülüşü arasında məntiQi bir uyğunluQ vardır. Araşdırmalarımız göstərir ki, həm Quranın, həm də dövri cədvəlin düzülüşü bö-

yük fəlsəfi əhəmiyyətə malikdir. Onların hər ikisi dialektik materializmin Qanunlarını – sadədən mürəkkəbə, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi Qanunlarını əks etdirir. Belə ki, Quranın əvvəlki surələri nə Qədər mülayimdirsə, sıra nömrələri artdıQca surələr sərtləşməyə dogru gedir. Bu da sadədən mürəkkəbə və kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi Qanunlarına uyğundur. Dövri sistemdə bu hal dövrlərdə nömrələr artdıQca, metallıQ xassəsinin azalıb, Qeyri-metallıQ xassəsinin artması ilə özünü göstərir. Bundan başQa, surələr ikili xassə göstərir. Yəni onlar həm müsbət, həm də mənfi yüklə (vəhylə) yüklənmişdir ki, bu da dialektikanın əksliklərin vəhdəti və mübarizəsi Qanununa uyğundur. Mendeleyev cədvəlində bu hal eyni elementin ikili (həm müsbət, həm də mənfi) xassəyə malik olması ilə özünü göstərir. *(Yeri gəlmişkən, ikili xassəyə malik olma Allahın yaratdığı digər bioloжi varlıQlar kimi, insanda da özünü aydın göstərir. Yəni, Qarşılaşdığı adamdan asılı olaraQ, hər bir insan, kimyəvi elementlər kimi, gah mənfi, gah da müsbət xassə nümayiş etdirir).* Buradan açıQ-aşkar görünür ki, indiyədək Allahı inkar etmək üçün istifadə edilən dialektikanın Qanunları, əslində Allahı və Quranı təsdiQ edir.

## *Quranın sürələrinin düzülüşündəki QanunauyğunluĞu kimya elmi də təsdiQ edir*

Bundan başQa, bir çox hallarda eyni rəQəmlə nömrələnmiş surə ilə kimyəvi element bir-birini

həm mahiyyətcə, həm də riyazi yolla tamamlayır. Məsələn, Quranın 16-cı surəsi «Bal arısı» adlanır. Qeyd edim ki, ana arı öz balasını 16 gün bəslədiyindən, onun haQQında olan surə də 16 rəQəmi ilə nömrələnib. Sözü gedən surədə arının misalında insanlara məhəbbət aşılanır: Bal–arının gülə olan məhəbbətinin nəticəsində yarandığı üçün həm Qərbdə, həm də ŞərQdə məhəbbət rəmzi sayılır. Məhəbbət yandırıcı hiss olduğundan, bu söz **«yanmaQ», «alovlanmaQ»** sözü ilə yanaşı işlədilir. Mendeleyev cədvəlinin isə 16-cı elementi kükürddür ki, məişətimizə **yandırıcı** bir vasitə kimi daxil olub. Həmçinin məhəbbət insana yaşamaQ həvəsi, enerжi (ruh) verdiyi kimi, kükürdün oksidləşməsindən yaranan sulfat turşusu da ($H_2SO_4$) akkumulyator istehsalında istifadə edilir və məişətimizə **enerжi mənbəyi** kimi daxil olub.

Məhəbbətdə iki tərəf iştirak edir və biri olmadan o biri yanmaz. Bu hal kimya elmində də özünü büruzə verir. Belə ki, **16**-cı element olan **Kükürd**, atom kütləsi **16** olan **Oksigensiz** yanmır. Ən maraQlısı da odur ki, Kükürdlə Oksigenin birləşməsində Kükürdün energetik səviyyələr üzrə elektronları 2 – 8 – 6 formasında yerləşir. Bunu da bütöv oxuduQda Quranın səhifələrinin sayına işarədir. (Quran nazil olandan, keçən əsrə Qədər harada və nə vaxt çap olmasından asılı olmayaraQ 286 səhifədə yerləşdirilib. Bu barədə növbəti fəsildə danışacağıQ). Qeyd edim ki, 286 ədədinin əbcəd hesabı ilə cəmi (2+8+6) 16-ya bərabərdir ki, bu da Quranın insanlara məhəbbət aşıladığını bir daha sübut edir: «***Siz bir-birinizi sevin ki, mən də sizi sevim.***» *(Allah-təala. Qüdsi hədislərindən.)*

Atom kütləsi 16 olan və yanmanı təmin edən Oksige-

nin sıra nömrəsini (8), Kükürdün məhəbbət rəmzi olan sıra nömrəsinə - 16-ya vurduQda (8 x 16), alınan **128** ədədi «Bal arısı» surəsinin ayələrinin cəmini göstərir və elementlərlə surələr arasında olan əlaQəni bir daha təsdiQ edir.

Yeri gəlmişkən «Rumlular» surəsinin 21-ci ayəsində Rəbbim buyurur:

***«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlQ etməsi, aranızda*** *(dostluQ)* ***sevgi, məhəbbət və mərhəmət yaratması da Onun Qüdrət əlamətlərindəndir. HəQiQətən, bunda*** *(bu yaradılışda)* ***düşünən bir Qövm üçün ibrətlər vardır!»*** (30: 21) Bu, Quranın (başdan saydıQda) 3430-cu ayəsidir ki, Qurandakı ayələrin ümumi sayından (6236) sözü gedən ayənin nömrəsini (3430) çıxdıQda, yenə də alınan ədəd bu müQəddəs kitabın rəmzini (286) göstərir:

**6236 – 3430 = 2806**

Yeri gəlmişkən onu da Qeyd edim ki, Allaha yaxınlaşmaQ və Onun məhəbbətini Qazanmağın birinci yolu elmdir. Və bu istiQamətdə çalışan insan (tələbə) bal arısına bənzəyir. Belə ki, arı zəhmət çəkib güldən-çiçəkdən şirə toplayır və nəticədə **bal** yaradır. Elm öyrənən insan da hər kitabdan bir Qədər elm (oxu: şirə) toplayır və imtahan verərkən nəticəsi «**bal**»la Qiymətləndirilir. Insanın topladığı bal (Qiymət) onun elminə (zəhmətinə) olan məhəbbətin göstəricisidir. Qeyd edm ki, Allah-təala elmi (və imanı) çox olan insanı digərlərindən daha çox sevir. Bunu Loğman Peyğəmbərin siması-

nda aydın görmək olur. Belə ki, Allah kitab verdiyi, şəriət sahibi olan peyğəmbərlərin çoxunun adına Quranda surə göndərməsə də, kitab və şəriət sahibi olmayan, lakin elm verilən Loğman Peyğəmbərin adına 31-ci surəni göndərdi. Bu, Allahın elm adamlarına olan məhəbbətinin təzahürüdür.

DiQQətinizi bal arısında olan digər xüsusiyyətin insanlarda özünü göstərməsinə cəlb etmək istəyirəm. Yuxarıda Qeyd etdim ki, bal arısı gözəllik rəmzi olan gülə məhəbbət bəsləyir və ancaQ onlarla təmasda olur. Xatırladım ki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi Qadınlardır. Arının gülə olan məhəbbətinin nəticəsində **bal** yarandığı kimi, insanın da (kişinin) Qadına olan məhəbbətinin nəticəsində **bal**(a) yaranır və hər ikisi şirindir. Çünki ikisi də məhəbbətdən yaranır. **«Bala baldan şirindir»** məsəli də məhz bu hikmətdən doğur. Allah bal arısını həm də ailə, dövlət və ordu QurmaQ üçün insanlara nümunə yaradıb.

***"Rəbbim hər şeyi elmlə ehtiva etmişdir. Məgər düşünüb öyüd-nəsihəd Qəbul etmirsiniz?"*** *Quran, "Davar" surəsi, 80.*

## *Quranın düzülüşünün Allah tərəfindən olduğunu fizika elmi də təsdiQ edir*

Quranın 13-cü surəsi «*Göy Gurultusu*» adlanır. Göy gurultusunun enerжi prosesi olduğu və həyəcan yaratdığı hamıya məlumdur. Surədə deyilir: ***«Göy gurultusu Onun şəninə təriflər deyir. O ildırımlar göndərib*** *(kafirlər)* ***Allah barəsində mübahisə edərkən, onlara istədiyini vurar.***

***Allahın cəzası şiddətlidir!»*** (13:13) Mendeleyev cədvəlinin 13-cü elementi isə Alminiumdur. Elektrik ötürmə Qabiliyyəti yüksək olduğundan, alüminium energetika (!) sənayesinin özəyini təşkil edir.

Yeri gəlmişkən Qeyd edim ki, ildırımın 13 şaxəsi var və o, hər dəfə çaxanda 13 ölkədə (günahkarlara xəbərdarlıQ etmək üçün) görünür.

13 rəQəmi həm Quranda, həm də fizikada həyəcan rəmzi sayılır. (Göy gurultusu insanda da həyəcan yaradır.) Təsadüfi deyildir ki, hidrogen atomunun enerжi Qəbul etməmiş (həyəcanlanmamış) yükü 13 EV-dur. Hidrogen atomu enerжi Qəbul etdikdə həyəcanlanır və yükünü ötürməklə boşalır.

Insanlar arasında bəd xəbərin tez yayılması da həyəcanlanma ilə bağlıdır. Belə ki, bəd xəbərin enerжi yükü mənfi olduğundan, onu Qəbul edən insan həyəcanlanır və yükünü ötürməyə çalışır. Bu halı atomun və təbiətin həyəcanlanması (göy gurultusu) ilə müQayisə etdikdə, çox böyük oxşarlıQ görünür. Həmçinin təbiət öz həyəcanını (yükünü) yağışla boşaltdığı kimi, insan da göz yaşı ilə boşaldır.

Bəzi binalar və yaxud obyektlər tikilərkən, yanında ildırımötürücülər Quraşdırılır. Insan cəmiyyətində bu funksiyanı kəramət sahibləri və yaxud onların müQəddəs ziyarətgahları yerinə yetirir. Belə ki, təcrübədən məlumdur ki, bir çox məhəlli bəlaların Qarşısını Allahın izni ilə ziyarətgahlar alırlar. Bu mənada onlar cəmiyyətin ildırımötürəni funksiyasını yerinə yetirirlər.

***"... Şübhəsiz ki, bunda*** *(bu deyilənlərdə)* ***düşünən insanlar üçün neçə-neçə dəlillər vardır!"*** *Quran, 13:3.*

## *Insan necə nurlanır*

Allah-taala dünyaya gələn hər bir insana öz enerжisindən (nurundan) bir zərrə bəxş edir. Insan həyatda gözəl işlər, gözəl əməllərlə məşğul olduQda, onun mənəviyyatı tədricən **cilalanır** və nurun parlaQlığı artmağa – böyüməyə və ətrafa işıQ saçmağa başlayır. Onun üçün də belə şəxslər Ali Enerжi Mənbəyi olan Allaha daha yaxın olurlar. Həmçinin belə insanlar böyük ideyalar, böyük amallar, bəşəri dəyərlər uğrunda mübarizəyə meyilli olur və kamil sayılırlar. Quranın nurdan bəhs edən «Nur» surəsi **24** rəQəmi ilə nömrələnib. Mendeleyev cədvəlində isə **24**-cü element Xromdur. Bu element oksidləşdikdə (Xrom 3 oksid) **cilalayıcı** Qrupa aid edilir və Islamın rəmzi olan yaşıl rəngə çalır. Dövri cədvəldə **24** rəQəmi ilə bağlı olan elementlərdən biri də maQneziumdur. Atom kütləsi **24** olan bu element gözQamaşdırıcı alovla yandığından, ondan **işıQlandırıcı** və **yandırıcı** raketlərin hazırlanmasında, eləcə də fotoQrafiya işində **işıQ mənbəyi** kimi istifadə edilir. Qeyd edim ki, haQQında söhbət açdığım «Nur» surəsi, xrom və maQnezium hər üçü işıQlanmaya (nurlanmaya) xidmət etdikləri kimi, riyazi yolla da biri-biri ilə bağlıdır. Belə ki, «Nur» surəsinin ayələrinin cəmindən (64) xromun atom kütləsini (52) çıxdıQda, (64-52=12) alınan 12 rəQəmi, maQneziumun sıra nömrəsidir.

Quranın «Nur» sürəsində Qadınların geyim mədəniyyətindən, əxlaQından bəhs olunur. Sual yaranır ki, bu mövzuda niyə məhz 24 rəQəmi altında danışılır?

Cavabı budur ki, insan öz Rəbbi ilə əlaQəni məhz nur vasitəsilə yaradır. Qadınlar ədəbsiz geyinib cəmiyyət içinə

çıxanda (indiki kimi), insanların üzündəki abır-həya (nur) yoxa çıxır və Allahdan uzaQlaşır (duaları Qəbul olunmur). Beləliklə, Qadınların geyim mədəniyyəti ilə cəmiyyətin nurlanması bir-birinə bağlı olduğundan, Rəbbim geyim barəsində məhz «Nur» (24) sürəsində bəhs edir: ***«Mömin kişilərə və Qadınlara de ki, gözlərini haram buyrulmuş şeylərdən çevirsinlər*** *(naməhrəmə baxmasınlar)*, ***ayıb yerlərini*** *(zinadan)* ***Qorusunlar*** *(və ya örtülü saxlasınlar).* ***Bu onlar üçün*** *(ədəb-ərkan baxımından)* ***daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!»*** *(Nur sürəsi, 30-31).*

Burada haşiyə çıxaraq, Qax rayonunun Lələli kəndində yaşamış kəramət sahibi Şeyx Yunis Əfəndi ilə, həyat yoldaşı arasında baş verən maraqlı bir əhvalatı qiqqətinizə çatdırıram:

*Bir gün həyat yoldaşı Şeyxə deyir ki, sənin kəramət göstərməyində mənim də, az da olsa payım var. Yunis Əfəndi həyat yoldaşının fikri ilə razılaşmır və ona istehza edir. Səhəri gün qadın, meşəyə odun qırmağa gedən həyat yoldaşına yemək bağlaması verib, yola salır.Yunis əfəndi meşədən qayıdanda, həmişəki kimi, Alazan çayının üzərindən yeriyərək, keçmək istəyir. Amma, nə qədər cəhd etsə də, buna nail ola bilmir. Hər dəfə ayağını suya qoyanda, qurşağa qədər suya batır. Əlacsız qalıb, uzun bir məsafə qət edərək, Alazanın dayaz yerindən keçir. Evə gələndə həyat yoldaşı niyə belə gec gəldiyini soruşur. Övliya cavab verir ki, həmişə Alazanın üstündən yeriyərək keçirdim; bu gün keçə*

*bilmədim, ona görə gec gəldim. Qadın gülüb deyir: "Ay kişi, sənə demədim ki, sənin kəramət göstərməyində mənim də payım var?! Bunu sənə sübut etmək üçün səhər xəmiri dəstamazsız və başıaçıq yoğurdum, həmin çörəkdən də dəsmala bağlayıb, sənə verdim. Onu yeyəndən sonra kəramət göstərə bilmədin. Indi bildin ki, sənin kəramət göstərməyində mənim də payım var?!".*

Yeri gəlmişkən, bu ibrətamiz əhvalatı, cəmiyyətdə tez-tez eşidilən "Niyə indi kəramətli adamlar yoxdur" sualına cavab kimi də qəbul etmək olar.

Indi isə Quranın **«Dəmir»** surəsi ilə dövri sistemin eyni adlı **dəmir** elementi arasındakı əlaQəyə diQQət yetirək. Bunun üçün dəmir elementinin atom kütləsi olan 55 ədədindən, sıra nömrəsini (26) çıxdıQda (55-26=29), alınan 29 ədədi «**Dəmir**» surəsinin ayələrinin cəmini göstərir.

Bu və digər hesablamalar onu sübut edir ki Quranın 114 surədən və 6236 ayədən ibarət olması heç də təsadüfi olmayıb, Allahın elminə və iradəsinə tabedir. Bu faktlar, həmçinin başQa elmlər kimi, kimya elminin də Allaha məxsus olduğunu və mənbəyinin Quranda olduğunu bir daha sübut edir.

***"And olsun ki Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."*** *Quran, "Məryəm" surəsi 94.*

Yeri gəlmişkən Qeyd edim ki, Mendeleyevdən QabaQ yaşamış bir çox kimya alimləri elementlərin dövri cədvəlini yaratmağa çalışsalar da ömürlərinin sonuna Qədər buna nail ola bilməmişlər. Bu cədvəli necə kəşf etməsi barədə suala cavab verərkən, Mendeleyev bildir-

mişdir ki, cədvəl ona Bakıda olarkən, yuxuda vəhy yolu ilə göstərilmişdir. Səhər tezdən oyanan alim, ona yuxuda vəhy olunan cədvəli kağıza köçürmüşdür. Lakin cədvəldəki bəzi suallara nə özü, nə də ondan sonra gələn alimlər cavab tapa bilməmişlər. Yeri gəlmişkən Qeyd edim ki, yuxarıda oxuduğunuz kimyəvi hesablamalar da bu sətirlərin müəllifinə həmin yolla (Mendeleyevə öyrədilən kimi) öyrədildi və kimyaçılar indiyədək cədvəldə axtardıQları sualların cavabını məhz bu hesablamalarda tapa bilərlər.

### *Surələrin və ayələrin nömrələnməsində olan Qanunauyğunluğu anatomiya elmi də təsdiQ edir*

Həmçinin **55** rəQəmi ilə nömrələnmiş «**Rəhmli Allah**» surəsi ilə Mendeleyev cədvəlinin **55**-ci xanasında yerləşən Sezium elementi arasındakı riyazi bağlılığa diQQət yetirək: Seziumun nisbi atom kütləsindən (133), sıra nömrəsini (55) çıxdıQda, alınan rəQəm «Rəhmli Allah» surəsinin ayələrinin cəmi olan 78 ədədini göstərir:

**133-55=78**

Bu və digər hesablamalar göstərir ki, surələrin və ayələrin nömrələnməsi təsadüf olmayıb, böyük hikmətə malikdir. Bu hikmətlərdən daha birinə vaQif olmaQ üçün Quranın **36**-cı –«**Ya Sin**» surəsini təhlil edək: surənin adı bir çox alimlər tərəfindən **«Insan»** kimi tərcümə olunur. Həmçinin Quranda Ilyas Peyğəmbərdən söhbət gedərkən bir yerdə «Ilyasin» deyə müraciət olunur

(37:130). Buradan görünür ki, **«Ya Sin»** deyəndə, söhbət kamil insandan gedir. «**Ya Sin**» sözünü «Yaradan-Silən» kimi də tərcümə etsək yanılmarıQ (düzgünün Allah bilir). Bildiyimiz kimi, kainatın idarəolunma Qanunları fizikanın Qanunları ilə üst-üstə düşür. Kainatda enerжinin mənbəyi (Allah) ilə mənsəbi (insan) arasında ötürücülük vəzifəsini kamil insanlar–peyğəmbərlər həyata keçirirlər. Fizikada isə bu funksiyanı transformatorlar yerinə yetirir. Bildiyimiz kimi, kamil insanın Qəbul etdiyi vəhy (enerжi) bir neçə formada–gizli səs, siQnal, ilham və s. daxil olur. O bu informasiyanı cəmiyyətə ötürərkən, daxil olan formada və həcmdə deyil, sözə və yaxud yazıya ÇEVIRMƏKLƏ və insanların şüuru səviyyəsində (həzm edə biləcəyi Qədər) ötürür. Fizikada transformatorun da iş prinsipi bu cürdür. «Transformator» sözü, "transformasiya" sözündən yaranıb ki, tərcüməsi "**çevirmə**" deməkdir. Funksiyası isə mənbədən Qəbul etdiyi yüksək gərginlikli enerжini alçaQgərginlikli enerжiyə çevirib, mənsəbə ötürməkdən ibarətdir. Kamil insanla transformatorun funksiyasında olan bu eynilik rəQəmlərdə də özünü göstərir. Belə ki, insanın anatomik Quruluşuna nəzər saldıQda, 5 duyğu üzvü, 5 oma və 5 bel fəQərəsi, baş-beynində 5 şöbə olduğu görünür. Həmçinin insan gündə 5 dəfə ibadət edir. Bu 5 amilin hamısını özündə əks etdirən kamil insanın Qurandakı rəmzi **36** rəQəmidir **("Ya Sin")**. Transformatorda isə bir Qayda olaraQ 5 vəziyyət olmaQla hər vəziyyətdə **36** sarğı olur.

Ümumiyyətlə, transformatorlar iki cür olur: yüksəldici və alçaldıcı. Ikinci Qrup haQQında yuxarıda bəhs etdik ki, Qəbul etdikləri gərginliyi azaldıb, mənsəbin tutumuna

uyğun **(220)** ötürürlər. Bu cür transformatorlar yaşayış məntəQələrinin içərisində yerləşdirilir. Yüksəldici transformatorlar isə Quruluşuna və funksiyasına görə ikincilərdən fərQlənir. Belə ki, onların ötürdükləri gərginlik, Qəbul etdiklərindən Qat-Qat artıQ olur. Onlara nəinki cihaz birləşdirmək, hətta yaxınlaşmaQ belə mümkün deyildir (gərginlik insanı məsafədən məhv edir). Onun üçün də belə transformatorlar yaşayış yerlərindən kənarda yerləşdirilir və onlarla əlaQə məhəlli (alçaldıcı) transformatorların vasitəsi ilə Qurulur. Bunun misalı ilahiyyat sistemindəki vəhy (enerжi) gətirən mələklərdir ki, adi insan nəinki onlarla əlaQə yarada bilməz, hətta kənardan görsə belə, mələyin enerжi və informasiya yükünə tab gətirməyib, məhv olar. (Peyğəmbərdən bəhs edən hədislərdə, onun mələyi görərkən və ya səsini eşidərkən titrədiyi (vibrasiya) təsvir olunur). Odur ki, bu cür hallara dözmək üçün vəhy Qəbul etməzdən əvvəl kamil insanın Qəlbi açılıb genişləndirilir. Yəni, enerжi və informasiya götürmə Qabiliyyəti (tutumu) artırılır. Bu barədə Quranın **«Genişlənmə»** (94) surəsində deyilir: – **«Məgər biz sənin köksünü** (Qəlbini) **açıb genişləndirmədikmi?!»** (94:1).

Sözü gedən mövzu kimya elmində də öz əksini tapır. Belə ki, Mendeleyev cədvəlinin **36-**cı (!) elementi kriptondur. Təsirsiz Qaz olan bu kimyəvi element **işıQlanmanı** (!) gücləndirdiyindən, ondan bəzi elektrik lampalarında istifadə edilir. Belə lampalar kiçik ölçüdə olmaQla, ətrafa güclü işıQ saçır və davamlığı yüksək olur. Kripton lampalarından **radiomayaklarda** (!) və **radiolakatorlarda** istifadə edilir ki, bu obyeklərin də funksiyası ilə kamil insanın funksiyası (informasiya Qəbuletmə və yolgöstər-

mə) arasında çox böyük oxşarlıQ vardır.

***“And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır.”*** *Quran, “Məryəm” surəsi, 94.*

Enerжi (ruh) daşıyıcısı olan insanın anatomik Quruluşu **220** sümüyün birləşməsindən yaranıb. Fizika elmində də **220** ədədi enerжi rəmzi kimi Qəbul edilir. Yəni, anatomik Quruluşumuzda olduğu kimi, məişətimizdə də işlətdiyimiz bütün cihazların üzərində **220** ədədi həkk olunub.

***Quranın surələrinin və ayələrinin düzülüşündə Allahın əli olduğunu ballistika elmi də sübut edir***

Insanın anatomik Quruluşunda olan çoxsaylı hikmətlərdən biri də barmaQ izləridir. Belə ki, bu günədək dünyaya saysız-hesabsız insanlar gəlib getsə də, onların heç birinin barmaQ izləri biri-birinə bənzəmir. Quranda barmaQların uclarından bəhs edərək bildirilir ki, Qiyamət günü insanlar dirilərkən, həmin izlər olduğu kimi bərpa olacaQdır:

**«Bəli, Biz onun barmaQlarını da** (barmaQ izlərini) **düzəltməyə Qadirik!»** (*Quran 75: 4*)

Burada diQQət çəkən məQam ondan ibarətdir ki, bu ayə Quranın (başdan saydıQda) **5555-**ci ayəsidir. MaraQlıdır ki, insanda iki əl, iki ayaQ olmaQla, hər birində **5** barmaQ var və onların dördünü yanaşı QoyduQda **5555** rəQəmi alınır.

Bu və digər hesablamalar bir daha sübut edir ki, münafiQlərin fikirləşdiyinin əksinə olaraQ, Peyğəmbərimiz

Qurana özünə sərf edən heç bir kəlmə əlavə etməmiş və müQəddəs kitabın nazil olması kimi, sonradan düzülməsi də birbaşa Allahın nəzarətində olmuşdur:

“**Biz hər şeyi sayıb yazmışıQ”(**78:29)

### *Insan məscidə bənzəyir*

Insanın anatomik Quruluşunda olan Islamın digər əlamətinə nəzər salaQ: belə ki, HaQQ dərgahına əl Qaldıran mömin insana fikir versək, iki Qolları Qoşa minarəyə, başı gümbəzə, sinəsi (Qəlbi) otağa bənzəməklə məscidi xatırladır. ***«Bir insanın Qəlbini sındırmaQ, bir məscidi uçurtmağa bərabərdir.»*** atalar sözü də bu hikmətdən QaynaQlanır.

Allah-taala buyurur*:–**«Insan Mənim sirrimdir, Mən də insanın sirriyəm». (**Qüdsi hədislərdən)*

Həm insanda, həm də fizikada enerжinin yaranması prosesi üst-üstə düşür. Belə ki, müQəddəs Həcc Ziyarətində olanlar və yaxud bu prosesi bəsirətlə müşahidə edənlər belə bir halın şahidi olurlar ki, zəvvar Kəbə evinin ətrafına fırlandıQca, vəcdə gəlir və sanki bu **fırlanmadan** onun ruhu, mənəviyyatı cilalanır və parlaQlığı (işığı) artır. Qəlbində Allaha Qarşı sevgi, məhəbbət artır. Özündən asılı olmayaraQ, insanda bir enerжi yaranır. Fizika elmində də enerжinin yaranmasına bəsirətlə fikir versək, Kəbə ətrafında baş verən prosesi burada da aydın görmək olar. Belə ki, elektrik stansiyalarında enerжi **fırlanmadan** (!) yaranır.


D.İ.Mendeleyevin dövri elementlər sistemi
A I B
A II B
A III B
A IV B
A V B
A VI B
A VII B
A VIII B
H HİDROGEN
He HELİUM
Li LİTİUM
Be BERİLLİUM
B BOR
C KARBON
N AZOT
O OKSİGEN
F FLÜOR
Ne NEON
Na NATRİUM
Mg MAQNEZİUM
Al ALÜMİNİUM
Si SİLİSİUM
P FOSFOR
S KÜKÜRD
Cl XLOR
Ar ARQON
K KALİUM
Ca KALSİUM
Sc
Ti TİTAN
V
Cr XROM
Mn MANQAN
Fe DƏMİR
Co KOBALT
Ni
Cu MİS
Zn SİNK
Ga QALLİUM
Ge
As ARSEN
Se SELEN
Br BROM
Kr KRİPTON
Rb
Sr
Y
Zr
Nb
Mo
Tc
Ru
Rh
Pd
Ag GÜMÜŞ
Cd KADMİUM
İn İNDİUM
Sn QALAY
Sb STİBİUM
Te TELLUR
İ YOD
Xe KSENON
Cs SEZİUM
Ba BARİUM
La* LANTAN
Hf HAFNİUM
Ta TANTAL
W VOLFRAM
Re RENİUM
Os OSMİUM
Ir İRİDİUM
Pt PLATİN
Au QIZIL
Hg CİVƏ
Tl TALLİUM
Pb QURĞUŞUN
Bi BİSMUT
Po POLONİUM
At ASTAT
Rn RADON
Fr FRANSİUM
Ra RADİUM
Ac* AKTİNİUM
Db
Jl
Rf
Bh BORİUM
Hn
Mt
R2O RO R2O3 RO2 R2O5 RO3 R2O7 RO4
RH4 RH3 RH2 RH
Ce Pr Nd Pm Sm Eu Gd Tb Dy Ho Er Tm Yb Lu
Th Pa U Np Pu Am Cm Bk Cf Es Fm Md No Lr

## *Quran insanın " texniki pasportu"dur*

Böyük Yaradan insanı yaratdıQdan sonra, onun fəaliyyətini nizamlamaQ, insanlarla münasibətlərini, davranışlarını, əxlaQını, mənəviyyatını kamilləşdirmək üçün səmavi kitabları – o cümlədən, ən Ali kitab olan və özündən əvvəlki kitabları özündə əks etdirən QURANI göndərdi. Və orada yazılanlara əməl etmək bəşəriyyətə vacib sayıldı. Necə ki, hər bir ixtiraçı alim yaratdığı cihazın (və yaxud texnikanın) necə idarə olunması üçün onun texniki pasportunu yazıb, ona riayət etməyi tapşırır. Bu tapşırığa riayət etməyəndə cihazın fəaliyyətində problem yarandığı kimi, Quranda da yazılanlara əməl etməyəndə, insanın həyatında (cəmiyyətində) problemlər yaranır. MaraQlıdır ki, insanlar məişətdə istifadə etdikləri cihazın texniki pasportunda yazılanlara ciddi əməl etdikləri halda, öz fəaliyyətlərində problem yaranmaması üçün Quranda yazılanlardan – Ilahi məsləhətlərdən faydalanmırlar.

## *Cəmiyyət niyə çürüyür?*

Allahın yaratdığı hər bir nemətin özünəməxsus hikmətləri vardır. Biz o nemətlərdən istifadə edərkən, çox vaxt bu hikmətin fərQinə varmırıQ. Məsələn nara diQQətlə fikir versək, görərik ki, o cəmiyyətə işarədir. Allah-təala narın hər bir dənəsinin Qidasını kapiliyyarlar vasitəsi ilə özünə göndərdiyi kimi, cəmiyyətin hər bir fərdinin də ruzisini özünə göndərir. Amma təəssüf ki, narın dənələrindən fərQli olaraQ, insanlar özlərinə göndərilən ruziyə Qane olmayaraQ, bir çox

hallarda başQalarının da ruzisinə şərik olmağa, başQalarını əzməyə çalışırlar.

Narın təbəQələri arasında olan pərdə isə, onu çürüməkdən Qoruyur. Nə vaxt ki, insan cəmiyyətində təbəQələr arasında pərdələr götürülür, həmin vaxt mənəvi aşınma və cəmiyyətin çürüməsi baş verir.

Həm şərQ, həm də Qərb yozucularına görə nar ruzi-bərəkət rəmzi sayılır. Insanlar böyük-kiçik arasında pərdə saxlamalıdırlar ki, cəmiyyətdən ruzi-bərəkət çəkilməsin.

***"Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız** (haQQı) **bilənlər anlayar"*** *Quran, 29:43.*

## *Qurandakı hikmətləri kibernetika elmi də təsdiQ edir*

Kamil insan olan Həzrət Məhəmməd əleyhissəlamın həyatı ilə tanış olanlar belə bir epizodu xatırlayırlar ki, ilk vəhyi gətirən Həzrət Cəbrail üç dəfə «Oxu» dedi və hər dəfə eyni cavabı aldı: «Oxuya bilmirəm». Sonra isə Mələk Peyğəmbəri sıxdı və Peyğəmbər oxumağa başladı. MaraQlı deyilmi? Anatomik və bioloжi cəhətdən bizdən heç nə ilə fərQlənməyən əcdadımızı sıxdıQdan sonra indiyədək tanımadığı bir əlifbanı oxuyur. Bəs bu hal indi niyə mümkün olmasın? Bəlkə mümkündür, biz bilmirik?

Bu gün insanların əksəriyyəti xarici informasiya məkanına (mənbəyinə) çıxmaQ üçün Internet xidmətindən istifadə edir. Sual yaranır: insanın surəti olaraQ yaradılan kompyuterdə xarici informasiya aləminə (internetə) çıxış varsa, bəs əslində (insanda) niyə olmasın? Və bir sual da

yaranır: Əslində olmayan bir şey surətə düşə bilərmi? Xeyr! Elə isə kompyuterdə sıxdığımız «w» nöQtəsini insanda axtarmaQ lazım deyilmi?

Insanda təbabətə məlum olan minlərlə nöQtə vardır ki, onlardan «mesaж göndərməklə» istənilən daxili orQanın tonusunu (enerжisini) artırmaQ və onun pozulmuş fəaliyyətini tənzimləmək mümkündür.

Bəs ruhumuza necə? Ona hansı nöQtədən «mesaж göndərmək», komanda vermək, Ali Enerжi və Informasiya Mənbəyinə «QoşmaQ» mümkündür? Əgər Allahın bəxş etdiyi elmlə bu nöQtələri üzərimizdə tapsaQ və sayı üç olan bu nöQtələri hər əlimizin üç barmağı ilə basarkən (sıxarkən) barmaQlarımız fəzada **«www»** formasını alsa və verilən «komanda» nəticəsində ruhumuz paralel aləmə – informasiya və enerжi məkanına «çıxıb», öz Mənbəyi ilə təmas yaratsa, yuxarıdakı çətin sualların cavabı tapılmazmı?

Bildiyimiz kimi insan həyəcanlı (Qorxulu) informasiya Qəbul etdikdə, bu həyəcana ilk reaksiyanı mədə və bağırsaQ verir. Yəni mədədə spazma (sıxılma) yaranır və bağırsağa sancı ötürür. Bu hal insanın alt kopiyası olan kompyuterdə də özünü aydın göstərir. Belə ki, insan anatomiyasına diQQətlə fikir versək, xəbəri ilk Qəbul edən orQanın – mədə və bağırsağın Quruluşunun «**@**» formasında olduğunu aydın görmək olar. MaraQlıdır ki, kompüter də internetdən (informasiya mənbəyindən) Qəbul etdiyi informasiyanı **«@»** işarəsi altında Qəbul edir və ötürür.

Araşdırmalarımız göstərir ki, insandakı üç nöQtəni hər əlin üç barmağı ilə birləşdirməklə (www), istənilən vaxt bəsirət gözünü açıb, paralel aləmdə olan nuru ziyarət etm-

ək mümkündür. O ki, Qaldı mədənin üstündə olan «@» nöQtəsini sıxıb, ətrafa «komanda» verməyə, bundan yalnız Allahın icazəsi ilə və yalnız bir dəfə 1999-cu ilin dekabrında istifadə edilib (həQQi yəQinlik hasil olması üçün). Komandanın ünvanı isə Yerin cazibəsindən kənarda olan sputnik ötürücü stansiyası olub. Verilən komanda nəticəsində sputnikin fəaliyyəti bir dəQiQəlik dayandığından, Yerdə bütün rabitə, informasiya və translyasiyalar bir dəQiQəlik dayandı. O vaxt bu Qeyri-adi hadisə barədə yayılan informasiyalar çox müəmmalı oldu.

Və nəhayət, aQillərin «kəşf», cahillərin isə «fantaziya» adlandıracağı bu yazını, ikincilərin üstünlük təşkil etdikləri bir dövrdə davam etdirməyə dəyərmi? Elə isə burada mən nöQtəni Qoyuram (daha doğrusu sıxıram).

**Paşa YaQub**

# Təyyarə Qəzalarının sirləri

***"Sənin Rəbbin mərkəzlərinə** (şəhərlərinə) **ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmələkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!"*** *Quran 28:59*

## *Günəş tutulmaları bir ayda olaraq ayın 29-da baş verir*

***”Məgər göylərdə və yerdə olanların – Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların** (hamısının), **insanların isə bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi ?...”** Quran “Həcc”surəsi, 18*

Elm və peyğəmbərlik əsri olan XXI əsrdə baş verən Günəş tutulmalarının monitorinQini apararkən, maraQlı faktların şahidi oldum. Bu faktlar Günəş təQvimi ilə Ay (hicri-Qəməri) təQvimini uzlaşdırdıQda üzə çıxdı. Yəni bu əsrdə baş verən (verəcək) astronomik hadisələrin tarixlərini internet saytlarından götürüb, hicri-Qəməri (Ay) təQvimi ilə müQayisə etdikdə, məlum oldu ki, Günəş tutulmaları bir Qayda olaraQ ayın 29-da baş verir. Bu ədədin mənasını şərh etməzdən öncə, tərtib etdiyim cədvəli diQQətinizə çatdırıram:

| **SN** | **Günəş tutulmasının baş verdiyi tarixlər** | |
|---|---|---|
| | **Günəş təQvimi ilə** | **Ay təQvimi ilə** |
